# YENİ AZƏRBAYCAN

17 aprel 2026-cı il, cümə
№ 065 (7132)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!



## İlham Əliyev Türkiyədə işgüzar səfərdə...




## Bakı beynəlxalq hüququ növbəti dəfə təmin etdi...

Bax səh. 2

## Prezident təsdiqlədi...

Bax səh. 3

## Bakıda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin qərargahı yaradılacaq

Türkiyənin İstanbul şəhərində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci konfransı keçirilib.50-yə yaxın ölkədən və beynəlxalq təşkilatdan olan nümayəndə heyətlərindən 130-a yaxın nümayəndənin iştirak etdiyi konfrans “Qoşulmama Hərəkatı regionunda iqlimə davamlı urbanizasiyanın təmin edilməsində parlamentlərin rolu” mövzusuna həsr edilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Milli Məclisinin və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova konfrans iştirakçılarını salamlayaraq, bu il Qoşulmama Hərəkatının yaradılmasının 65-ci ildönümünün qeyd olunduğunu xatırladıb. Onun sözlərinə görə, 65 il keçməsinə baxmayaraq, ilk konfransın dünyada sülhə və təhlükəsizliyə daha effektiv töhfə vermək, xalqlar arasında sülh və əməkdaşlığı təşviq etmək kimi məqsədləri bu gün də aktuallığını itirməyib. Sahibə Qafarova deyib ki, geosiyasi gərginliklər, silahlı münaqişələr, iqtisadi bərabərsizliklər, iqlim dəyişikliyi və digər mürəkkəb qlobal problemlər kimi ciddi çağırışlar bu problemlərlə mübarizə aparmaq üçün birlikdə hərəkət etməyi tələb edir. Bu gün siyasi müzakirələrin əsasən bu məsələlərin həllinə yönəldiyi bir vaxtda, Qoşulmama Hərəkatının əsas prinsipləri və məqsədləri irəliyə doğru addımlamaq üçün əvəzsiz istiqamət göstərir.

Milli Məclisin sədri hazırda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə parlament nümayəndələri və tərəfdaş təşkilatlar tərəfindən...

Bax səh. 3




Bax səh. 3

## Ən qədim və ən böyük beynəlxalq parlament təşkilatı...

## Mükəmməl idarəetmə strategiyası

Bax səh. 4

## Strateji tərəfdaşlığın yeni dövrü

Bax səh. 5

## Macyar nəyi dəyişəcək?

Bax səh. 7

## Qarşıdakı 4 ildə...

Maliyyə Nazirliyi (MN) “2027-2030-cu illərə dair “Ortamüddətli büdcə çərçivəsi” (OMBÇ) sənədini ictimaiyyətə təqdim edib. Sənəd büdcə siyasətinin əsas istiqamət və hədəflərini, makro-fiskal çərçivəni, milli xərc prioritetlərini, ortamüddətli resurs zərfini, icmal büdcənin və dövlət büdcəsinin gəlir-xərclərinin proqnozlarını,habelə, dövlət büdcəsi xərclərinin funksional təsnifatının büdcə islahatlarına cəlb olunan bölmələrində nəzərdə tutulan proqramların həyata keçirilməsi üçün ayrılan vəsaitlərin yuxarı hədləri barədə məlumatları özündə əks etdirir.

OMBÇ sənədinə əsasən, 2026-cı ildə neft və qaz hasilatının həcminin azalacağı gözlənilir. 2029-2030-cu illərdə neft və əmtəəlik qaz hasilatı üzrə artımın müşahidə olunması ilə neft-qaz sektorunda artım proqnozlaşdırılıb.

İqtisadiyyat Nazirliyi tərəfindən cari ilin mart ayında təqdim olunan proqnozlara əsasən baza ssenaridə neftin bir barelinin orta illik ixrac qiyməti 2027-2030-cu illər üçün 65 dollar olacağı fərz edilib. Proqnozlara əsasən 2027-ci ilin sonuna ÜDM-in həcmi 139 milyard manat təşkil edəcəyi, 2030-cu ildə isə 166,9 milyard manata qədər artacağı gözlənilir. ÜDM-də qeyri-neft-qaz sektorunun payının 2025-ci ildəki 71,5 fazidən 2027-ci ildə 78 faizə, 2030-cu ildə isə 81,8 faizə çatacağı fərz edilir. Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,3 faiz, qeyri-neft-qaz ÜDM-in isə 4,2 faiz olacağı proqnozlaşdırılır. 2030-cu ildə qeyri-neft-qaz gəlirlərinin dövlət büdcəsinin gəlirlərindəki payı 2027-ci ilin göstəricisi ilə müqayisədə 8,1 faiz-bənd artaraq 69,1 faiz, mütləq ifadədə isə 18,8 faiz artaraq 28,4 milyard manat təşkil edəcək. Eyni zamanda, dövlət büdcəsinin neft-qaz gəlirləri 2027-ci illə müqayisədə 17 faiz azalaraq dövrün sonunda 12,7 milyard...

Bax səh. 4



## Növbəti hədəf - KUBA...

Bax səh. 6



## ABŞ - İran: Atəşkəs uzadılacaq?

Bax səh. 6



# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident.

Əziz Qardaşım.

Kahramanmaraşda yerləşən məktəbə silahlı hücum nəticəsində əksəriyyəti uşaq olmaqla çox sayda insanın həlak olması və yaralanması xəbərini dərin sarsıntı və kədər hissi ilə qarşıladıq.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, uşaqlara qarşı yönəlmiş bu qəddarlıq əməlini qətiyyətlə pisləyirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, səbir diləyir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 aprel 2026-cı il**

# Hikmət Babaoğlu “Şöhrət” ordeni ilə təltif edilib

## H.B.Məmmədovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Hikmət Baba oğlu Məmmədov “Şöhrət” ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 aprel 2026-cı il**

# Bakı beynəlxalq hüququ növbəti dəfə təmin etdi...

## Rusiya kompensasiya ödəyəcək, öhdəliklərini yerinə yetirəcək




Azərbaycan bütün situasiyalarda beynəlxalq hüququn prinsiplərinə sadiqliyi ilə seçilir - hətta ən kəskin fors-major hadisələr zamanı belə təmkinli, ən əsası da məhz beynəlxalq hüquqa əsaslanan xətti davamlı şəkildə inkişaf etdirir, bu xəttdən geri çəkilmir. Misal olaraq Azərbaycan tarixinin ən gərgin və həyati məsələsinə diqqət  çəkmək olar: istər uzun illər davam edən işğal dövründə, istər müharibə mərhələsində, istərsə də post-münaqişə reallıqları fonunda ölkə öz mövqeyini hüquqa əsaslanan ardıcıl və prinsipial yanaşma üzərində qurub. Bu yanaşma qlobal məkanda Azərbaycanın yalnız siyasi deyil, həm də hüquqi müstəvidə etibarlı tərəfdaş kimi qəbul olunmasına zəmin yaradır.

**38 nəfər həyatını itirdi, 29 nəfər xəsarət aldı...**

2024-cü il dekabrın 25-də Rusiyanın hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində “Azərbaycan Hava Yolları”na (AZAL) məxsus “Embraer 190” tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması zamanı da Bakı davranışını məhz bu kontekstdə qurdu - hadisəyə emosional deyil, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə yanaşaraq, Rusiyanın məsuliyyətini açıq şəkildə etiraf etməsini və bu cür hallarda dövlətlərin üzərinə düşən öhdəlikləri yerinə yetirməsini tələb etdi.

Xatırladaq ki, təyyarənin göyərtəsində 62 sərnişin, 5 ekipaj üzvü olmaqla, ümumilikdə 67 nəfər vardı. Qəza nəticəsində 38 nəfər həyatını itirdi, 29 nəfər, o cümlədən iki uşaq qəza nəticəsində xəsarət aldı. Göyərtədə ümumilikdə 37 Azərbaycan vətəndaşı vardı ki, onlardan 23-ü vəfat etdi. 16 Rusiya vətəndaşından 7-si həyatını itirdi. 6 Qazaxıstan vətəndaşı dünyasını dəyişdi. 5 nəfərdən ibarət ekipaj üzvü qəza zamanı göstərdikləri dəyanət və qəhrəmanlıqla yadda qaldılar: Hava gəmisinin kapitanı - İqor Kşnyakin, köməkçi pilot - Aleksandr Kalyaninov, təyyarə bələdçisi Hökumə Əliyeva qəzada həyatlarını itirdilər. Təyyarənin pilotları və bələdçi Hökumə Əliyeva II Fəxri xiyabanda dəfn olundular - onlar hadisə zamanı fədakarlıq göstərdiklərinə görə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldülər.

**Qəza necə baş verdi?**

Qəza və onun nəticələri ilə bağlı Azərbaycanın mövqeyi aydın və açıq idi: baş verən hadisə hüquqi çərçivədə qiymətləndirilməli, zərərçəkən tərəfin hüquqları təmin olunmalı və beynəlxalq praktika əsasında ədalətli həllə nail olunmalıdır. Qəza ilə bağlı açıqlanan hesabatda göstərilirdi ki, təyyarə Rusiyanın hava məkanında, o cümlədən Qroznı hava limanı üzərində GPS siqnallarının itməsi halı ilə üzləşib. Daha sonra təyyarə hava şəraitinin əlverişli olmaması səbəbindən Qroznı üzərində ikinci enişi yerinə yetirə bilmədikdən sonra kapitan Bakıya qayıtmaq barəsində qərar verib - qərarın qəbul edilməsindən sonra Qroznı üzərində CVR-da 24 saniyə aralıqla iki dəfə kənar səsin gəlmə faktı qeydiyyata alınıb. CVR və FDR məlumatlarının tutuşdurulması nəticəsində müəyyən edilib ki, birinci kənar səsdən 4 saniyə sonra 3-cü hidravlik sistem, 6 saniyə sonra 1-ci hidravlik sistem, 21 saniyə sonra 2-ci hidravlik sistem funksionallığını itirməklə sıradan çıxıb.



O da göstərilirdi ki, hava gəmisinin füzelyajında çoxsaylı dəlib keçən və kor zədələrin olması faktı aşkar olunub və foto, habelə video qeydiyyata alınıb. Həmin zədələr hava gəmisinin füzelyajının arxa hissəsində, xüsusilə şaquli və üfüqi stabilizatorlarında çox sayda, habelə sol qanadda və sol mühərrikdə aşkar olunub. Hesabatda hava gəmisinin quşlarla toqquşmasına işarə edən hər hansı fakt barəsində məlumat təqdim edilməyib. Təyyarənin qalıqlarının kor zədələrində olan, hava gəmisinə məxsus olmayan kənar obyektlər aşkarlanaraq götürülüb və həmin kənar obyektlərin foto şəkilləri ilkin hesabat mətnində ictimaiyyətə təqdim edilib. Hesabatda bildirilirdi ki, 05:13:32-də hava gəmisinin əsas idarəetmə sistemləri itirilir, 05:21:42-də əlaqələndirici dispetçer “Kover” əməliyyatı barədə Qozniya məlumat verir.

**Bakı prosesi nəzarətə götürdü...**

Qeyd edək ki. qəza baş verən zaman Prezident İlham Əliyev Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşmüşdü - dövlət başçısına bu xəbər Rusiya hava məkanında olarkən məruzə edildi. Prezident dərhal geri dönmək barədə tapşırıq verdi. Baş vermiş təyyarə qəzası ilə əlaqədar məsələlər birbaşa dövlət başçısının nəzarətinə götürüldü. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, təyyarə qəzasının səbəblərinin araşdırılması üçün dövlət komissiyası yaradıldı. Təyyarənin qara qutusu Braziliyanın Hərbi Hava Qüvvələrinin peşəkar mütəxəssisləri tərəifndən açıldı. Aparılan araşdırmalardan sonra təyyarənin Qroznı şəhərinə yaxınlaşan zaman hücuma məruz qaldığı bəlli oldu. Qəzadan sonra Azərbaycan təyyarənin hücuma məruz qalmasında günahkar olan Rusiyadan məsuliyyətli davranış tələb etdi - Rusiya prezidenti Azərbaycanın dövlət başçısına zəng edərək üzr istədi. Bu prinsipial və ardıcıl siyasətin nəticəsi olaraq tərəflər arasında müəyyən razılıq əldə edildi. Azərbaycanın təkidi ilə məsələ hüquqi müstəvidə saxlanıldı və beynəlxalq hüququn tələblərinə uyğun addımların atılması təmin olundu. Bu isə bir daha göstərdi ki, Azərbaycan istənilən mürəkkəb vəziyyətdə belə hüquqa əsaslanan mövqeyindən geri çəkilmir və milli maraqlarını məhz bu çərçivədə qorumağa nail olur.

**Prezidentlərin görüşündə razılıq əldə edilmişdi...**

Ötən ilin oktyabrında Düşənbədə Prezident İlham Əliyev ilə Rusiya dövlət başçısı Putin arasında keçirilən ikitərəfli görüş zamanı məsələ ildə bağlı yenidən fikir mübadiləsi aparıldı - Rusiya tərəfi baş verənlərin məsuliyyətini üzərinə götürdü. Düşənbədə keçirilən  təkbətək görüşdə çıxış edən Prezident Vladimir Putin Rusiyanın hava məkanında baş verən aviasiya faciəsi haqda danışaraq həmin vaxt iki ölkə başçısı arasında telefon danışığı əsnasında faciənin məhz Rusiya səmasında baş verdiyinə görə üzr istədiyini, həm də həlak olanların ailələrinə ən səmimi başsağlığı verdiyini önə çəkib: “İstərdim ki, bütün bunları təkrar edim, yenidən söyləyim və qeyd edim, biz sözsüz ki, razılaşdığımız kimi, istintaqa hər cür kömək göstəririk”.

Putin faciənin səbəblərini Prezident İlham Əliyevə təqdim etdiyini, belə hallarda, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcəyini və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcəyini bildirdi: “Əlbəttə, bu faciə ilə bağlı ailələrin dəstəklənməsinə, onlara mənəvi dəstək verilməsinə yönəlmiş bütün sözlər belə hallarda əsas problemi həll etmir - faciə nəticəsində həlak olmuş insanları həyata qaytarmaq mümkün deyil. Amma bizim borcumuz, bir daha təkrar edirəm, biz Sizinlə əvvəldən baş verənlərə obyektiv qiymət vermək və əsl səbəbləri üzə çıxarmaq barədə razılaşmışdıq”.

**Birgə bəyanat...**

Aprelin 15-də Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirlikləri birgə bəyanat yayıblar. Bəyanatda bildirilir ki, Azərbaycan və Rusiya prezidentlərinin Düşənbə şəhərində 2025-ci il oktyabrın 9-da keçirilən görüşü zamanı əldə olunmuş anlaşmaya uyğun olaraq, tərəflər 2024-cü il dekabrın 25-də Rusiyanın hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində “Azərbaycan Hava Yolları”na (AZAL) məxsus “Embraer 190” tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar kompensasiyanın ödənilməsi də daxil olmaqla, qəzadan irəli gələn məsələlərin müvafiq şəkildə həlli barədə razılığa gəliblər.

Bəyanatda, həmçinin bildirilib: “Atılan addımlar müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirir. Əminik ki, Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəflərin maraqlarının nəzərə alınması əsasında davamlı inkişafı bundan sonra da mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və iki ölkənin xalqlarının mənafeyi naminə əməkdaşlığın genişlənməsinə töhfə verəcək. Təyyarə qəzası nəticəsində həyatını itirmiş şəxslərin ailələrinə və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verir və faciədən zərər çəkmiş hər kəslə bu əvəzolunmaz itkinin ağrı-acısını bölüşürük”.

**Diplomatik qətiyyət və sosial məsuliyyətin vəhdəti...**

Bu, Azərbaycanın tutduğu mövqenin, inkişaf etdirdiyi siyasi xəttin düzgünlüyünü təsdiqləyən növbəti fakta çevrildi. Söhbət yalnız qəza ilə bağlı verilən maddi kompensasiyadan getmir. Azərbaycan dövləti hadisə zamanı həyatını itirən və zərər görən vətəndaşlarının ailələrinə kompleks şəkildə dəstək göstərib, onların sosial müdafiəsini diqqət mərkəzində saxlayıb. Ümumiyyətlə, Azərbaycan dövləti öz vətəndaşının sosial problemlərinin həllini hər zaman ilkin prioritet kimii qəbul edir. Bu yanaşma dövlətin öz vətəndaşına münasibətdə məsuliyyətli və ardıcıl siyasət apardığını nümayiş etdirir. Bu mənada məsələnin mahiyyəti yalnız kompensasiya ilə məhdudlaşdırılmamalıdır - əldə olunmuş razılaşma Azərbaycanın diplomatik imkanlarının genişliyini, siyasi qətiyyətini və beynəlxalq müstəvidə artan nüfuzunu əyani şəkildə ortaya qoyur. Bu proses bir daha təsdiqləyir ki, Azərbaycan dövləti öz vətəndaşlarının hüquq və maraqlarını ən yüksək səviyyədə qorumaq iqtidarındadır və bu istiqamətdə bütün vasitələrdən effektiv şəkildə istifadə edir. Necə ki, hadisə baş verən gündən dövlətmiz açıq, şəffaf və ədalətli araşdırmanın aparılmasında, nəticələrin əldə olunmasında israr edirdi - buna da nail oldu.

**Azərbaycan bütün qonşuları ilə müsbət əlaqələrin inkişafında maraqlıdır...**

Azərbaycan ilə Rusiya arasındakı müsbət münasibətlər fonunda kompensasiyanın ödənilməsi Bakının regionda formalaşdırdığı yüksək siyasi və diplomatik statusun göstəricisi kimi çıxış edir. İki ölkə arasındakı müsbət əlaqələr daim inkişaf xəttinə əsaslanır. Azərbaycan, bütün qonşu dövlətlərlə olduğu kimi, Rusiya ilə də qarşılıqlı hörmət və əməkdaşlığa əsaslanan münasibətlərin davam etdirilməsində maraqlıdır. Bu yanaşma regional sabitliyin və təhlükəsizliyin təmin olunmasına xidmət edir. Eyni zamanda, ölkəmiz bütün məsələlərə beynəlxalq hüquq normaları çərçivəsində yanaşır və bu prinsiplərə sadiqliyini ardıcıl şəkildə nümayiş etdirir. Bu isə Azərbaycanın həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirir.

***Pərviz SADAYOĞLU***

# Prezident təsdiqlədi...

## Uşaq hüquqlarının qorunmasına güclü təminatlar



Uşaqlar bizim gələcəyimizdir. Buna görə də onlar hərtərəfli qayğı ilə əhatə olunmalı, mənəvi və fiziki cəhətdən sağlam böyüməli, yaxşı təhsil almalıdırlar. Ölkəmizdə uşaq hüquqlarının qorunması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib.

Bu siyasətin ardıcıllığının davamı olaraq "Uşaq hüquqları haqqında" yeni Qanuna adekvatlığı təmin etmək məqsədilə müvafiq məcəllə və qanunlarda dəyişikliklər təsdiqlənib. Prezident İlham Əliyev bununla bağlı Mülki Prosessual, Ailə, Cinayət-Prosessual məcəllələrinə, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" qanunlara dəyişiklikləri imzalayıb.

**Geniş əhatə dairəsinə malik dövlət uşaq siyasəti**

Azərbaycanın dövlət uşaq siyasəti kifayət qədər geniş əhatə dairəsinə malikdir. Dərin məzmunlu islahatlar kursu bu sahədən də yan keçməyib. Belə ki, dövlət başçısının imzaladığı sənədlər əsasında uşaq siyasəti ilə bağlı mükəmməl hüquqi baza formalaşdırılıb. Ölkəmizin uşaq hüquqları haqqında qanunvericiliyi Konstitusiyadan, respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bəhs olunan Qanundan, Ailə Məcəlləsindən və bir sıra digər qanunlardan, normativ hüquqi aktlardan ibarətdir. Uşaqların sağlam böyüməsi, onların baxımsızlığı hallarının aradan qaldırılması, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud, məcburi köçkün ailələrdən olan uşaqların sosial müdafiəsinin təmin edilməsi dövlətin qəbul etdiyi sosialyönümlü proqramlarda xüsusi yer tutur. Eyni zamanda, uşaq siyasəti ilə bağlı aparılan islahatların davamı olaraq Prezident İlham Əliyevin 2 iyun 2020-ci il tarixində imzaladığı Sərəncamla "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" təsdiqlənib. Sənəddə vurğulandığı kimi dövlət uşaq siyasətinin başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil ilə və müasir tələblərə cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi dəyərlərə əsaslanan sosial mühitdə böyüməsi üçün zəruri şərait yaradılması, uşaqların şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır.

**Bütün uşaqlar bərabər hüquqlara malikdirlər**

Respublikamızda "Uşaq hüquqları haqqında" yeni Qanun ölkədə uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların hüquq və azadlıqlarını, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatlarını və dövlət nəzarətinin əsaslarını müəyyən edir.

Səkkiz fəsil, 63 maddədən ibarət qanun layihəsində nəzərdə tutulmuş hüquqlar və azadlıqlar irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, əqidəsindən, sağlamlıq imkanlarından, valideynlərinin (onları əvəz edən şəxslərin), digər ailə üzvlərinin sosial vəziyyətindən, ictimai birliklərə mənsubiyyətindən və digər əlamətlərdən asılı olmayaraq hər bir uşağa aid edilir. Azərbaycanda olan əcnəbi və vətəndaşlığı olmayan uşaqlar digər qanunlarda və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, bu Qanunda nəzərdə tutulmuş bütün hüquqlardan və azadlıqlardan istifadə edə bilərlər.

Qanuna görə, bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqlar bu Qanunda göstərilən əlamətlərə görə ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin (onları əvəz edən şəxslərin) hərəkət və hərəkətsizliyinə görə məsuliyyət daşımırlar və valideynləri ilə (onları əvəz edən şəxslərlə) bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir. Nikahdan və ya nikahdankənar doğulmasından asılı olmayaraq, uşaqların valideynlərinin hər birinə münasibətdə eyni hüquqları var. Eyni zamanda, dövlət uşağın fərdiliyini, yəni vətəndaşlığını, adını və ailə əlaqələrini saxlamaq hüququnu qoruyur.

Hər bir uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Uşağın şəxsi və ailə həyatının sirri qanunla qorunur və hər bir uşağın şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ var. Qanunla nəzərdə tutulan hallardan başqa, uşağın şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, uşaq izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

**Uşaqlar barəsində icraat zamanı hansı qaydalar gözlənilməlidir?**

"Uşaq hüquqları haqqında" qanun layihəsinə əsasən uşaqlar barəsində icraat zamanı qanunla müəyyən edilmiş qaydada uşağın işlə bağlı öz fikrini ifadə etmək hüququ var. Uşağın fikrinin öyrənilməsi prosesi informativ, uşağa hörmət əsasında, təhlükəsiz və uşaq məsələləri sahəsində hazırlıqlı mütəxəssis tərəfindən istiqamətləndirilən olmalıdır.

Bu yanaşma mülki və cinayət prosessual qanunvericilikdə bir sıra dəyişikliklərin edilməsini zəruri edir. Bu məqsədlə mülki işlərdə uşaqların fikri öyrənilərkən, cinayət işlərində istintaq tədbirləri zamanı yetkinlik yaşına çatmamış şahidin və zərər çəkmişin dindirilməsi, üzləşdirilmə, ifadələrinin yerində yoxlanılması, istintaq eksperimenti, tədqiqat üçün nümunələrin götürülməsi zamanı digər şəxslərlə yanaşı psixoloqun iştirakını tələb edən normalar müvafiq qanunvericiliyə əlavə edilib.

Cinayət prosesinin iştirakçısı olan uşaqların fərdi məlumatlarının qorunması istiqamətində Cinayət Prosessual Məcəlləsində yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə məlumatların açıqlanması üçün tələb olunan razılığın yalnız yazılı formada olması müəyyən edilib. Həmin maddəyə əsasən razılıq həmin uşaqların özündən və qanuni nümayəndələrindən alınır. Eyni yanaşma "Media haqqında" qanunda da olacaq.

**Çətin həyat şəraitində olan uşaqların müdafiəsi**

Bu, bir reallıqdır ki, bütün uşaqlar eyni şəraitdə böyümürlər. Çətin həyat şəraitində olan uşaqlarla bağlı vəziyyət isə xüsusi yanaşma tələb edir. Çətin həyat şəraitində olan uşaqların müdafiəsi istiqamətində mövcud olan qanunvericilik bazasının təkmilləşdirilməsi və aydın mexanizmlərin müəyyən edilməsi məqsədi ilə "Uşaq hüquqları haqqında" qanuna xüsusi fəsil daxil edilib. Belə uşaqların yetkinlik yaşına çatmış şəxslərdən fərqli olaraq özünümüdafiə və müstəqil müraciət etmək qabiliyyətinin daha zəif olması, aşkarlanarkən onlar barəsində təcili və təxirə salınmaz tədbirlərin həyata keçirilməsini tələb edir. Bu istiqamətdə məsul qurumun üzərinə konkret vəzifələr düşür. Bundan irəli gələrək "Sosial xidmət haqqında" qanuna və "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"yə yeni normalar daxil edilib.

Son illərdə ailə qanunvericiliyinə edilən dəyişikliklər əsasında uşaqların hüquqlarının qorunması istiqamətində prokurorluğun səlahiyyətləri genişləndirilib. Prokurorluğun həmçinin cinayət və inzibati xətalar haqqında işlərdə uşaq hüquqlarının təmin edilməsinə prosessual nəzarət funksiyası var.

***Mübariz ABDULLAYEV***

# Bakıda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin qərargahı yaradılacaq

Türkiyənin İstanbul şəhərində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci konfransı keçirilib.50-yə yaxın ölkədən və beynəlxalq təşkilatdan olan nümayəndə heyətlərindən 130-a yaxın nümayəndənin iştirak etdiyi konfrans "Qoşulmama Hərəkatı regionunda iqlimə davamlı urbanizasiyanın təmin edilməsində parlamentlərin rolu" mövzusuna həsr edilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Milli Məclisinin və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova konfrans iştirakçılarını salamlayaraq, bu il Qoşulmama Hərəkatının yaradılmasının 65-ci ildönümünün qeyd olunduğunu xatırladıb. Onun sözlərinə görə, 65 il keçməsinə baxmayaraq, ilk konfransın dünyada sülhə və təhlükəsizliyə daha effektiv töhfə vermək, xalqlar arasında sülh və əməkdaşlığı təşviq etmək kimi məqsədləri bu gün də aktuallığını itirməyib. Sahibə Qafarova deyib ki, geosiyasi gərginliklər, silahlı münaqişələr, iqtisadi bərabərsizliklər, iqlim dəyişikliyi və digər mürəkkəb qlobal problemlər kimi ciddi çağırışlar bu problemlərlə mübarizə aparmaq üçün birlikdə hərəkət etməyi tələb edir. Bu gün siyasi müzakirələrin əsasən bu məsələlərin həllinə yönəldiyi bir vaxtda, Qoşulmama Hərəkatının əsas prinsipləri və məqsədləri irəliyə doğru addımlamaq üçün əvəzsiz istiqamət göstərir.

Milli Məclisin sədri hazırda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə parlament nümayəndələri və tərəfdaş təşkilatlar tərəfindən göstərilən böyük maraqdan məmnunluğunu ifadə edərək, üzv parlament nümayəndələrinin Şəbəkənin fəaliyyətində fəal iştirakının yalnız parlamentarilərin öz hökumətlərinin səylərini tamamlamağa olan qətiyyətini deyil, eyni zamanda Hərəkatın məqsədlərinin həyata keçirilməsində rolunun artdığını da nümayiş etdirdiyini vurğulayıb. Onun sözlərinə görə, Parlament Şəbəkəsi çərçivəsində aparılan dialoq və birgə səylər parlament vasitələri ilə sülhə, sabitliyə, inkişafa və rifaha nail olmaq öhdəliyinin sübutudur. Sahibə Qafarova bu kontekstdə Parlament Şəbəkəsinin institusional mexanizmlərinin və təşkilati strukturunun daha da inkişaf etdirilməsinin və gücləndirilməsinin xüsusi əhəmiyyətini qeyd edib və inamını ifadə edib ki, bu konfransda aparılan müzakirələr və qəbul ediləcək qərarlar onun bütün potensialını üzə çıxarmağa kömək edəcək.

Çıxışında Sahibə Qafarova Azərbaycanın evsahibliyi ilə keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası haqqında da mıəlumat verib. Bildirilib ki, cari ilin may ayında Bakı şəhərində keçiriləcək sessiya "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunacaq. Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə əvvəllər işğal altında olmuş və tamamilə dağıdılmış Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti və bərpa layihələrini həyata keçirir. Həmin ərazilərdə yeni yaşayış məntəqələri, nəqliyyat, enerji və iqtisadi infrastruktur qabaqcıl şəhərsalma prinsipləri əsasında qurulur və burada "yaşıl enerji zonası", "ağıllı şəhər" və "sıfır tullantı" kimi innovativ konsepsiyalar tətbiq olunur. Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı ilə tərəfdaşlıq çərçivəsində təşkil olunmuş üç milli şəhər forumu təcrübə və yeni təşəbbüslərin paylaşılması üçün mühüm platforma rolunu oynayıb və bu sahədə əməkdaşlığın gücləndirilməsinə töhfə verib.

Qeyd olunub ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası Yeni Şəhər Gündəliyinin icrasının aralıq qiymətləndirilməsi olacaq. Bu tədbirdə son onilliyə nəzər salınacaq və 2036-cı ilə qədər prioritetlər müəyyənləşdiriləcək. Çıxışının sonunda spiker Sahibə Qafarova bir daha əminliyini ifadə edib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi öz fəaliyyəti vasitəsilə parlamentlərarası əməkdaşlığın inkişafında, ümumi dəyərlərin təşviqində, dialoqun və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində mühüm rol oynamaqda davam edəcək.

Sonra konfransda Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş, Parlamentlərarası İttifaqın Prezidenti Tulia Akson, İttifaqın Baş katibi Martin Çunkonq, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Əlcəzair Milli Xalq Assambleyasının sədri İbrahim Bouğali, Misir Ərəb Respublikası Nümayəndələr Palatasının sədri Hişam Badavi və başqaları çıxış edərək, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Azərbaycan Milli Məclisinin sədrliyi ilə institusional inkişafı və təşkilatın beynəxalq nüfuzunun artırılması istiqamətində görülən işləri yüksək qiymətləndiriblər.Çıxış edənlər, həmçinin konfransın həsr olunduğu "Qoşulmama Hərəkatı regionunda iqlimə davamlı urbanizasiyanın təmin edilməsində parlamentlərin rolu" mövzusunun aktuallığı barədə fikirlərini bölüşüblər, təkliflərini səsləndiriblər. Konfransın sonunda İstanbul Bəyannaməsi qəbul olunub.Tədbirdə, həmçinin Ərəb Parlamentinə Parlament Şəbəkəsində müşahidəçi statusunun verilməsi haqqında da qərarlar qəbul olunub.

Konfransda qəbul edilən vacib qərarlardan biri də Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakıda qərargahının yaradılmasıdır. Əlbəttə, belə bir qərarın verilməsi təsadüfi deyil. Çünki ölkəmiz 2011-ci ildə qəbul olunduğu bu təşkilatın işində çox fəal iştirak edir. Həmin tarixdən etibarən Azərbaycan Qoşulmama Hərəkatı ilə əməkdaşlığı uğurla inkişaf etdirib. Hərəkata üzv ölkələrin 2016-cı ildə keçirilmiş Zirvə görüşündə təşkilata 2019-2022-ci illər üzrə sədrliyin respublikamıza həvalə edilməsi barədə yekdil qərar qəbul edilib. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərində Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə təşkilata sədrlik Azərbaycana həvalə olunub. Azərbaycanın 3 il müddətinə bu təşkilata sədr seçilməsi, şübhəsiz ki, diplomatiyamızın növbəti qələbəsi olub.2021-ci ildə isə Qoşulmama Hərəkatının üzvləri Azərbaycana müraciət ünvanlayıb və sədrliyi əlavə bir il müddətinə həyata keçirməyi xahiş ediblər. Azərbaycan da öz növbəsində bu təklifi qəbul edib. Nəticədə, Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin onlayn formatda baş tutan Aralıq Konfransında Hərəkat üzvləri yekdilliklə Azərbaycanın sədrliyinin daha bir il, yəni, 2023-cü ilə qədər uzadılması haqqında qərar veriblər.

2020-ci ilin mayında QH-nin COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Bu sammitdə Prezident İlham Əliyev BMT BaşAssambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif dünya ictimaiyyəti tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya uğurla baş tutdu. Xüsusi sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir hesab olunur. Eyni zamanda, QH-nin sədri kimi ölkəmiz "peyvənd millətçiliyi"nə qarşı uğurla mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

Bundan başqa, Azərbaycan ötən müddət ərzində QH-nin fəaliyyət göstərdiyi BMT qərargahlarında, eləcə də digər beynəlxalq tədbirlərdə Hərəkat üzvləri adından yüzlərlə bəyanat səsləndirib, onlarla qətnamə layihələri və digər təşəbbüslər irəli sürüb, səfirlər və digər səviyyələrdə əlaqələndirmə görüşləri təşkil edib. Eləcə də, Azərbaycan QH-na sədrliyi dövründə, həmçinin qurumun təsisatlanmasının keyfiyyətlə yeni mərhələyə yüksəlməsinə də sanballı töhfələr verib. Belə ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, Gənclər Təşkilatı və Qadınlar Platformasının təsis olunması da ölkəmizin təşəbbüsü nəticəsində reallaşıb. Bu baxımdan, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakıda qərargahının yaradılması təşkilatın işini daha da gücləndirəcək.

***Nardar BAYRAMLI***




# Ən qədim və ən böyük beynəlxalq parlament təşkilatı...

## İstanbulda Parlamentlərarası İttifaqın 152-ci Assambleyası keçirilib

***Nardar BAYRAMLI***

Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində güclü və nüfuzlu dövlət kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında isə uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında etibarlı tərəfdaş, güclü ölkə kimi tanınır. Cənubi Qafqaz geosiyasi məkanında lider dövlət kimi çıxış edən ölkəmiz özünün çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ilə həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda yerləşdiyi regionun inkişafına mühüm töhfələr verir. Azərbaycanın fəal xarici siyasəti, həmçinin davamlı inkişafı onu siyasi, iqtisadi və mədəni cəhətdən qlobal mərkəzlərdən birinə çevirməkdədir.

Qeyd edək ki, ölkəmizin beynəlxalq əlaqələrinin inkişafında Azərbaycan parlamentinin də xüsusi rolu var. Başqa sözlə, parlament diplomatiyası dövlətimizin xarici siyasət kursunda mühüm yer tutur. Bu baxımdan, Milli Məclisin beynəlxalq fəaliyyəti xüsusi qeyd olunmalıdır. Məlumdur ki, Milli Məclis bir sıra beynəlxalq təşkilatlarda təmsil olunur, eləcə də bir çox ölkələrin parlamentləri ilə dostluq qrupları fəaliyyət göstərir. Əlbəttə, parlament çox mühüm hakimiyyət qoludur və onun işində beynəlxalq fəaliyyət xüsusi yer tutur. Parlamentarilər beynəlxalq miqyasda Azərbaycan həqiqətlərinin təbliği istiqamətində öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar.

Milli Məclisin fəal əməkdaşlıq etdiyi təşkilatlardan biri də Parlamentlərarası İttifaqdır. Qeyd edək ki, İstanbulda Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyası keçirilib. Bu il Türkiyə Böyük Millət Məclisinin ev sahibliyi ilə təşkil olunan tədbirdə "Gələcək nəsillər naminə ümidin gücləndirilməsi, sülhün təmin edilməsi və ədalətin qorunması" mövzusu müzakirə edilib. Ümumilikdə 160-a yaxın ölkənin qatıldığı tədbirdə parlament sədrləri və deputatlar da daxil olmaqla 2400-dən çox nümayəndə iştirak edib. Azərbaycanı Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Tədbir çərçivəsində Assambleya sessiyaları, daimi komitə müzakirələri, forumlar və tematik görüşlər daxil olmaqla 80-dən çox tədbir keçirilib.

Qeyd edək ki, bu, İttifaqın İstanbulda keçirilən dördüncü Assambleyasıdır. Bundan əvvəlki tədbirlər 1934, 1951 və 1996-cı illərdə təşkil edilib. Tədbirin açılış mərasimində Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş, PAİ-nin prezidenti Tulia Akson, PAİ-nin baş katibi Martin Çunqonq və BMT-nin koordinatoru Babatunde Ahonsi çıxış edərək müzakirələrin aktuallığı barədə fikirlərini bildiriblər.

Toplantıda "Gələcək nəsillər naminə ümidin gücləndirilməsi, sülhün təmin edilməsi və ədalətin qorunması" istiqamətində parlamentlərin fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində təşəbbüslər müzakirə edilərək əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Xatırladaq ki, Parlamentlərarası İttifaq ən qədim və ən böyük beynəlxalq parlament təşkilatıdır. 1889-cu ildə yaradılmış bu ittifaq dünyanın 179 ölkəsinin parlamentarilərini və bır sıra parlamentlərarası təşkilatı birləşdirir. Dünyada ən nüfuzlu parlament təşkilatlarından biri olan Parlamentlərarası İttifaq öz fəaliyyətində parlamentarizmin inkişafına, insan haqlarına riayət edilməsinə, həmçinin millətlərarası sülhün bərqərar olmasına və beynəlxalq təhlükəsizliyin qorunub saxlanmasına kömək edir.

# Qarşıdakı 4 ildə...

Maliyyə Nazirliyi (MN) “2027-2030-cu illərə dair “Ortamüddətli büdcə çərçivəsi” (OMBÇ) sənədini ictimaiyyətə təqdim edib. Sənəd büdcə siyasətinin əsas istiqamət və hədəflərini, makro-fiskal çərçivəni, milli xərc prioritetlərini, ortamüddətli resurs zərfini, icmal büdcənin və dövlət büdcəsinin gəlir-xərclərinin proqnozlarını,habelə, dövlət büdcəsi xərclərinin funksional







Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi









## Ortamüddətli büdcə çərçivəsi nə vəd edir?

təsnifatının büdcə islahatlarına cəlb olunan bölmələrində nəzərdə tutulan proqramların həyata keçirilməsi üçün ayrılan vəsaitlərin yuxarı hədləri barədə məlumatları özündə əks etdirir.

OMBÇ sənədinə əsasən, 2026-ci ildə neft və qaz hasilatının həcminin azalacağı gözlənilir. 2029-2030-cu illərdə neft və əmtəəlik qaz hasilatı üzrə artımın müşahidə olunması ilə neft-qaz sektorunda artım proqnozlaşdırılıb.

İqtisadiyyat Nazirliyi tərəfindən cari ilin mart ayında təqdim olunan proqnozlara əsasən baza ssenaridə neftin bir barelinin orta illik ixrac qiyməti 2027-2030-cu illər üçün 65 dollar olacağı fərz edilib. Proqnozlara əsasən 2027-ci ilin sonuna ÜDM-in həcmi 139 milyard manat təşkil edəcəyi, 2030-cu ildə isə 166,9 milyard manata qədər artacağı gözlənilir. ÜDM-də qeyri-neft-qaz sektorunun payının 2025-ci ildəki 71,5 fazidən 2027-ci ildə 78 faizə, 2030-cu ildə isə 81,8 faizə çatacağı fərz edilir. Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,3 faiz, qeyri-neft-qaz ÜDM-in isə 4,2 faiz olacağı proqnozlaşdırılır. 2030-cu ildə qeyri-neft-qaz gəlirlərinin dövlət büdcəsinin gəlirlərindəki payı 2027-ci ilin göstəricisi ilə müqayisədə 8,1 faiz-bənd artaraq 69,1 faiz, mütləq ifadədə isə 18,8 faiz artaraq 28,4 milyard manat təşkil edəcək. Eyni zamanda, dövlət büdcəsinin neft-qaz gəlirləri 2027-ci illə müqayisədə 17 faiz azalaraq dövrün sonunda 12,7 milyard manata qədər aşağı düşəcək.

2027-ci ildə əsas kapitala investisiya qoyuluşlarında 5,6 faiz, ortamüddətli dövrdə isə orta illik 2,1 faiz artım olacağı, həmçinin kapital yatırımlarında dəyişikliklər fonunda 2026-cı ildən 2028-ci ilin sonuna doğru neft-qaz sektoruna yönəldilən kapital qoyuluşlarında artım proqnozlaşdırılır. İqtisadiyyat Nazirliyi tərəfindən baza ssenaridə cari il üzrə 5,5 faiz proqnozlaşdırılan orta illik inflyasiya tədricən azalaraq 2030-cu ildə 4,6 afziə düşəcək.

Makroiqtisadi proqnozlara əsasən, 2027-2030-cu illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülüb. Ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2030-cu ildə 135,4 milyard manata, xərclərinin isə 133,6 milyard manata qədər yüksəlməsi gözlənilir.

**2027-2030-cu illərdə büdcə siyasətinin istiqamət və hədəfləri**

2027-ci il və növbəti üç ili əhatə edən ortamüddətli dövr üzrə büdcə siyasətinin məqsəd, istiqamət və hədəfləri bir sıra çağırışlar nəzərə alınmaqla müəyyən edilib. Ötən dövr üzrə fiskal siyasət üçün xarakterik olan bir sıra çağırışlar, o cümlədən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” in icrası, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, ortamüddətli büdcə dövrü üçün öz aktuallığını qorumaqdadır.Bununla yanaşı, rəqəmsal inkişaf sahəsində müəyyən edilən prioritetlər, su təchizatı və nəqliyyat infrastrukturunun inkişafı, sosial, ərzaq təminatı və digər sahələr üzrə qəbul edilmiş strategiya, dövlət proqramları və qərarlar fiskal siyasətin formalaşmasına təsiredici amillər sırasında yer alır.

Qarşıdakı 4 ildə büdcənin gəlirlər üzrə siyasətində əsas istiqamətlər ölkənin iqtisadi inkişafını təmin etmək, iqtisadi şaxələndirməni genişləndirmək və investisiya mühitini daha cəlbedici etmək məqsədi daşıyır. Bu çərçivədə vergi yükünün optimallaşdırılması, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, vergi və gömrük inzibatçılığının təkmilləşdirilməsi, ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin artırılması kimi addımlar planlaşdırılır. Bununla yanaşı, dövlət büdcəsi gəlirlərini təmin edən orqanlarla vergi ödəyiciləri arasında şəffaf münasibətlərin qurulması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində addımların atılması davam etdiriləcək. Qeyd olunanlar nəzərə alınmaqla, 2027-2030-cu illər üzrə vergi siyasətində əsas prioritetlərdən biri olan biznes mühitinin daha əlverişli və proqnozlaşdırıla bilən əsaslarla formalaşdırılması, vergi inzibatçılığının sadələşdirilməsi, müddəti bitən vergi güzəşt və azadolmalarına yenidən baxılması, fiskal və iqtisadi səmərəliliyinin yenidən qiymətləndirilməsi nəzərdə tutulur.

Büdcə gəlirlərinin təmin edilməsi tədbirləri çərçivədə müxtəlif fəaliyyət sahələri üzrə vergitutma obyektlərinin konkretləşdirilməsi, iqtisadi əməliyyatların daha dolğun uçotunun təmin edilməsi və vergi bazasının genişlənməsinə xidmət edən normativ-hüquqi və inzibati mexanizmlərin təkmilləşdirilməsi əsas prioritetlərdən biridir. Habelə vergi borcları üzrə möhlət mexanizminin sadələşdirilməsi və təşviqlərin tətbiqi, vergi borclarının idarə olunması sahəsində borcların tənzimlənməsi mexanizmlərinin sadələşdirilməsi, ödəyicilər üçün daha çevik yanaşmaların tətbiqi və könüllü ödəniş intizamının gücləndirilməsi əsas məqsədlərdəndir. Habelə qeyri-rezidentlərin vergiyə cəlb edilməsi mexanizminin təkmilləşdirilməsi, müasir iqtisadi münasibətlər və sərhədlərarası əməliyyatların genişlənməsi şəraitində əsas istiqamətlərdən biri qeyri-rezident şəxslərin Azərbaycan mənbəli gəlirlər üzrə vergiyə cəlb edilməsinin daha effektiv mexanizmlər əsasında təşkili və bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulur. Bu ssenariyə əsasən, rəqəmsal xidmətlər, elektron ticarət, beynəlxalq xidmət göstərilməsi və digər sərhədlərarası əməliyyatlar üzrə vergitutma qaydalarının dəqiqləşdirilməsi və beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi planlaşdırılır.

**Xərclər üzrə siyasətin əsas prioritetləri**

2027-2030-cu illərdə dövlət xərclərinin əsas istiqamətləri dayanıqlı və yüksək iqtisadi artımın dəstəklənməsi, qeyri-neft sənayesində iqtisadi artımın sürətləndirilməsi, rəqəmsal inkişaf yönümlü və innovasiyatutumlu sahələrə investisiyaların artması, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması və qiymət sabitliyinin təmin edilməsi, sahibkarlığın inkişafı və yerli istehsalın stimullaşdırılması, biznes-investisiya mühitinin yaxşılaşdırılması, eləcə də “kölgə iqtisadiyyatı”nın məhdudlaşdırılması ssenarilərinə əsaslanır. Hədəf çərçivəsində növbəti dövrdə ölkənin enerji ixracı coğrafiyasının şaxələndirilməsi, Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə strateji tranzit qovşağın formalaşması, nəqliyyat-logistika marşrutlarının genişləndirilməsi və yükaşırma qabiliyyətinin artırılması gözlənilir ki, bu, büdcə strategiyasında mühüm amillər kimi nəzərə alınıb. Xərc prioritetlərinə əsasən, “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”nın icrası, logistika və informasiya-rabitə sahələrində müşahidə olunan dinamikanın artırılması məqsədilə əlavə resursların cəlbi planlaşdırılır.

Müdafiə və milli təhlükəsizlik tədbirləri xərc prioritetlərində əsas yerlərdən birini tutur. Ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi və hərbi potensialın artırılması ilə bağlı tədbirlərin davam etdirilməsi, mina təmizləmə sahəsində ixtisaslaşmanın gücləndirilməsi, hərbçilərin sosial təminatının və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində kompleks tədbir və layihələrin icrası üçün zəruri maliyyə təminatının yaradılması diqqət mərkəzində saxlanılacaq.Ordunun təchizatının daha da gücləndirilməsi, bu sahədə əhəmiyyətli paya malik olan müdafiə sənayesinin inkişafı və ixrac imkanlarının genişləndirilməsi də xərc ssenarisində əhəmiyyətli yer tutur.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin davam etdirilməsi xərc paketində əsas maliyyətutumlu sahə kimi diqqətdə saxlanılacaq.

Rəqəmsal iqtisadiyyatın inkişafı üçün zəruri olan layihələrin dəstəklənməsi, “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya” üzrə müəyyən edilmiş tədbirlərin icrası büdcə siyasətinin əsas xərc prirotitetləri sırasında olacaq.

Sosial müdafiə və sosial təminat istiqamətində tədbirlər də diqqət mərkəzində saxlanılacaq və əhalinin sosial müdafiəsi, xüsusilə də həssas təbəqələrin təminatının gücləndirilməsi məqsədilə büdcədə müvafiq maliyyə təminatı yaradılacaq.

2027-2030-cu illərdə büdcə xərclərində prioritet sahələr kimi təhsilin innovativ inkişafının dəstəklənməsi, səhiyyə sisteminin modernləşdirilməsi, innovativ tibbi texnologiyaların tətbiqi, təmiz ətraf mühit və “yaşıl artım”ın təmin olunması da mühüm istiqamətlərdəndir.

Ortamüddətli dövrdə makroiqtisadi dayanıqlığı, maliyyə və borc intizamının gücləndirilməsi, Dövlət Neft Fondunun aktivlərinin qorunması, xərclərin optimallaşdırılması və səmərəliliyinin yüksəldilməsi, makro-fiskal çərçivənin tətbiqi də əsas ssenarilər sırasında yer alır.

*E.CƏFƏRLİ*

# Mükəmməl idarəetmə strategiyası

## Dövlət Neft Fondu suveren kapital bazarında mövqeyini möhkəmləndirir

Azərbaycanın Dövlət Neft Fondu (DNF) beynəlxalq suveren fondlarla əməkdaşlığı artıraraq öz kapital imkanlarını gücləndirməkdədir. DNF Çin İnvestisiya Korporasiyası və İndoneziya İnvestisiya Qurumunun birgə təsis etdiyi Çin-ASEAN İnvestisiya Platformasında (CAIP) yer almaqla suveren fondlar ailəsində öz yerini daha da möhkəmləndirib.Eyni zamanda, bu platformaya qoşulmaqla, beynəlxalq miqyasda strateji tərəfdaşlığı gücləndirilməklə, beynəlxalq investisiya sektorunda yeni mərhələyə keçidi daha da sürətləndirib.

### DNF-Çin-ASEAN İnvestisiya Platforması

DNF, Çin İnvestisiya Korporasiyası və İndoneziya İnvestisiya Qurumu tərəfindən birgə təsis olunan platforma Çin və ASEAN regionu arasında uzunmüddətli investisiya imkanlarının reallaşdırılmasına xidmət edir. İlkin mərhələdə platforma çərçivəsində 520 milyon dollar həcmində vəsait formalaşdırılıb və gələcəkdə bu məbləğin 1 milyard dollara çatdırılması nəzərdə tutulur. Platformanın fəaliyyəti üç suveren fondun birgə idarəetmə mexanizminə əsaslanır və əsas məqsəd kapital axınlarının təşviqi ilə yanaşı, sənaye əməkdaşlığının daha da gücləndirilməsidir. Bu çərçivədə sənaye, səhiyyə, istehlak, texnologiya və biznes xidmətləri kimi sahələr üzrə yüksək potensiala malik investisiya imkanlarının dəyərləndirilməsi planlaşdırılır. Qlobal təchizat zəncirlərində baş verən dəyişikliklər də bu istiqamətdə yeni fürsətlərin yaranmasına zəmin yaradır.

Bu təşəbbüsün formalaşması isə əvvəlki illərdə atılmış addımların məntiqi davamıdır. Belə ki, 2025-ci ilin aprel ayında Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı DNF ilə Çin İnvestisiya Korporasiyası arasında imzalanmış anlaşma sənədi iki ölkənin suveren fondları arasında əməkdaşlığın inkişafına mühüm təkan verib. Həmin sənəd yalnız tərəfdaşlığın genişlənməsi üçün zəmin yaratmayıb, eyni zamanda, bilik və təcrübə mübadiləsini, eləcə də dayanıqlı investisiya yanaşmalarının formalaşdırılmasını təşviq edən strateji çərçivə rolunu oynayır. Beləliklə, Çin İnvestisiya Korporasiyası və İndoneziya İnvestisiya Qurumu ilə birlikdə CAIP platformasına qoşulan DNF üçtərəfli əməkdaşlıq çərçivəsində yeni idarəçilik modeli formalaşdırmış olur.

### CAIP platformasının üstünlükləri

Platforma yalnız maliyyə resurslarının cəlb edilməsi ilə məhdudlaşmır, həmçinin tərəfdaş fondlar arasında institusional təcrübə mübadiləsi, bilik paylaşımı və əlaqələrin genişləndirilməsi baxımından da mühüm rol oynayır. Bu yanaşma uzunmüddətli perspektivdə daha dayanıqlı və səmərəli investisiya mühitinin formalaşdırılmasına xidmət edir.

CAIP çərçivəsində ayrılan vəsaitlərin əsasən beynəlxalq nüfuza malik özəl kapital idarəçilərinin fondlarına yönəldilməsi planlaşdırılır. Bununla yanaşı, ASEAN regionunda fəaliyyətini genişləndirmək istəyən Çin şirkətləri, eləcə də Çin texnologiyası və təchizat imkanlarından yararlanmağa çalışan yerli şirkətlər üçün də əlavə imkanlar yaradılır.

DNF üçün bu platformada iştirak həm də investisiya strategiyasının mühüm tərkib hissəsidir. Fondun uzunmüddətli və şaxələndirilmiş portfel siyasətinə uyğun olaraq, Cənub-Şərqi Asiya bazarlarına çıxış imkanları genişlənir və yeni investisiya istiqamətləri formalaşır. Neft Fondu uzun müddətdir Çin bazarında aktiv fəaliyyət göstərir. Fond 2015-ci ildən etibarən bu ölkənin kapital bazarlarına investisiyalar yatırır və hazırda həmin yatırımlar ümumi portfelin təxminən 2,5 faizini təşkil edir ki, bu da təxminən 1,9 milyard dollara bərabərdir. İnvestisiyaların böyük hissəsi sabit gəlirli alətlərə yönəlsə də, bu investisiyalar arasında səhmlər, infrastruktur layihələri və daşınmaz əmlak kimi müxtəlif maliyyə aktivləri də yer alır. Hazırda Dövlət Neft Fondunun investisiya portfelinin 2,2 milyard dolları Çinin maliyyə-investisiya sektorlarını əhatə edir ki, bu da suveren fondlar arasında münasibətlərin möhkəm etimada əsaslanmasının göstəricisidir.

### Qlobal investisiya bazarlarında etibarlı tərəfdaş

Ümumiyyətlə aktivləri 75 milyard dollara çatan Azərbaycanın milli suveren institutu - DNF qlobal maliyyə bazarlarında fəal tərəfdaş kimi qəbul edilməkdədir. Dövlət Neft Fondu hazırda dünyanın ən nəhəng suveren fondları, kapital institutları ilə sıx əməkdaşlıq edir. Dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan ABŞ-ın “Brookfield Asset Management” və “Brookfield” şirkətləri ilə ilə yaxın əməkdaşlıq münasibətləri investisiya nufuzunun göstəricisidir. Habelə Amerikanın “Neuberger Berman” şirkəti ilə səmərəli tərəfdaşlıq quran Dövlət Neft Fondunun müasir investisiya alətləri tətbiq etməsində “Neuberger Berman”in təcrübəsi mühüm əhəmiyyət kəsb edir.

DNF Avrozona, ABŞ, Asiya və digər qlobal bazarlarda öz investisiya siyasətini şaxələndirirək Azərbaycanın milli gəlirlərinin artmasında mühüm rol oynayır. Dünyada baş verən mürəkkəb geoiqtisadi proseslər fonunda təmkinli sərmayə siyasəti yürüdərək məcmu aktivlərini artırmaqdadır. Hazırda Fondun kapital porfelinin əhəmiyyətli hissəsi qlobal bazarlarda müxtəlif maliyyə alətlərinə, o cümlədən, səhm, qızıl, daşınmaz əmlak və infrastruktur kimi müxtəlif sahələrə yönəldilib.

### “A2” reytinqi yüksək nüfuzu əks etdirir

Bütün bu amillər Fondun investisiya reytinqinin yüksəlməsinə də təsir edir. Beynəlxalq kredit agentlikləri “Standard & Poor’s” tərəfindən verilmiş “A” və “Fitch” - “Moody’s” tərəfindən verilmiş “A2” kredit reytinqi də bunu təsdiqləyir.

Göründüyü kimi, Fond təkcə maliyyə nəticələrini yaxşılaşdırmaqla kifayətlənmir, eyni zamanda, Azərbaycanın qlobal iqtisadi müstəvidə mövqeyini möhkəmləndirən layihələrə investisiya qoymaqla, davamlı inkişafa və gələcək nəsillərin mənafeyinə xidmət edən əsas maliyyə dayaqlarından biri kimi çıxış edir. Hazırda Dövlət Neft Fondu Azərbaycanın davamlı inkişafına və iqtisadi potensialının möhkəmləndirilməsinə dəyərli töhfələr verən mühüm təşkilat kimi yeni çağırışlar əsasında maliyyə-investisiya uğurlarını davam etdirməkdədir.

Beləliklə, Azərbaycanın milli suveren qurumu olan Dövlət Neft Fondu öz investisiya strategiyasını daha da təkmilləşdirərək neft və qaz gəlirlərindən əldə edilən vəsaitləri mükəmməl idarəetmə kursu sayəsində artırır və Azərbaycanın milli dividend potensialını gücləndirir. Bu siyasət, həmçinin, DNF-in beynəlxalq maliyyə arxitekturasında strateji mövqeyinin daha da möhkəmlənməsinə, eləcə də qlobal iqtisadi proseslərdə daha fəal iştirakının təmin olunmasına xidmət edir.

*E.CƏFƏRLİ*

# 41-ci Qadın Parlamentarilər Forumu...

Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq prioritet istiqamətlərdən biridir. Bu prosesdə parlament diplomatiyası da aktiv rol oynayır. Azərbaycanın qanunverici orqanı olan Milli Məclis beynəlxalq təşkilatların işində və müxtəlif platformalarda yaxından iştirak edir. Belə platformalardan biri də Qadın Parlamentarilər Forumudur.

## Platforma 1978-ci ildən fəaliyyət göstərir

Qeyd edək ki, Qadın Parlamentarilərin Forumu ötən dövr ərzində qadın deputatlara beynəlxalq qərarların qəbulu prosesində iştirak etmək üçün qlobal platforma təqdim edən unikal qurumdur. Qadınların siyasi proseslərdə iştirakı məsələsində qabaqcıl olan Forum Beynəlxalq Parlament İttifaqının hər Assambleyasında toplanır. Qadın Parlamentarilərin Görüşü adlanan Forum milli parlamentlərdə, eləcə də, müxtəlif beynəlxalq təşkilatların strukturlarında gender balanssızlığını aradan qaldırmaq üçün siyasi fəaliyyət göstərir. Bu platforma parlamentlərdə demokratiyanın inkişafına töhfələr verir və üzv ölkələr tərəfindən qəbul edilən qərarlarda gender perspektivini təmin edir. Forum qadın deputatlara digər ölkələrin gender bərabərsizliyi ilə bağlı problemləri öyrənmək imkanı da verir. Ötən illər ərzində bu, bütün dünyada qadın deputatlar arasında əlaqələrin gücləndirilməsi və qadın siyasətçilərin səlahiyyətlərinin artırılması üçün effektiv üsul olduğunu nümayiş etdirir. Lakin kişi deputatların da Forumun işinə töhfə verməsi təklif edilir.

1978-ci ildə kiçik, lakin fəal qadınlar qrupu arasında BMT daxilində qadın qrupları ideyası kimi başlayan platforma o vaxtdan qadın siyasətçilər üçün geniş imkanlar yaradıb. Forum Qadın Parlamentarilər Bürosu tərəfindən dəstəklənir. Büro Forumun işini təşkil edir, Gender Tərəfdaşlığı Qrupunun işinə rəhbərlik edir və Rəhbərlik Şurasına hesabat verir. Büro Qadın Parlamentarilər Forumu tərəfindən seçilir və altı qrupdan olan qadın deputatlardan ibarətdir. Qurumun bir prezidenti və iki vitse-prezidenti var. Prezident avtomatik olaraq təşkilatın İcraiyyə Komitəsinin üzvü olur, digərləri isə Qadın Parlamentarilər Bürosunun üzvü sayılırlar.




## İstanbulda keçirilən Forumda nələr müzakirə olunub?

Qadın Parlamentarilər Forumu ənənəvi olaraq müxtəlif ölkələrdə keçirilir. Yeri gəlmişkən, Parlamentlərarası İttifaqın Türkiyənin İstanbul şəhərində keçirilən 152-ci Assambleyası çərçivəsində 41-ci Qadın Parlamentarilər Forumu keçirilib. Forumda iştirak edən Milli Məclisin sədri Sahibə Qafarova çıxışında qadin parlament sədrlərinin 2025-ci ildə keçirilmiş 15-ci Zirvə Toplantısının hesabatını təqdim edib. Azərbaycan parlamentinin sədri bu təqdimatın münaqişələrin, gərginliklərin, qeyri-müəyyənliklərin və artan bərabərsizliklərin hökm sürdüyü bir dövrdə xüsusilə vacib olduğunu qeyd edərək vurğulayıb ki, parlamentarilər mövcud problemlərin həllinin bir hissəsi olmalıdır. Çünki bu gün dünya sülhün təmin edilməsi üçün dialoqun və inklüzivliyin gücünə ehtiyac duyur. Təqdim olunan hesabatın qadın parlament sədrləri tərəfindən qəbul edilən Bəyannamə olduğunu diqqətə çatdıran Sahibə Qafarova deyib ki, bu sənəd parlamentləri bir araya gətirməyə, sülh və inklüzivlik naminə fəaliyyətə çağırır.

Milli Məclisin sədri çıxışında qeyd edib ki, fəaliyyət üçün çağırışlar heç də həmişə sabit, dinc anlarda meydana gəlmir. Onlar böhran, münaqişə və geriləmə dövrlərində ortaya çıxır. S.Qafarovanın sözlərinə görə, dünyanın bir çox yerlərində zorakılığın, müharibənin və təhlükələrin mövcud olmasının qadınlara və qızlara, onların gələcəyinə necə ağır təsir etdiyini gördükcə, bu məqam səyləri gücləndirməyi və sürətləndirməyi tələb edir. Sənəddə dünyanın mövcud vəziyyəti ilə bağlı dərin narahatlığın, münaqişə və müharibə bölgələrində yaşayan bütün qadın və qızlarla həmrəyliyin ifadə olunduğunu vurğulayan S.Qafarova bu Forumu da eyni həmrəyliyi nümayiş etdirməyə dəvət edib.

Eyni zamanda, hesabatda beynəlxalq humanitar hüquqa və insan haqlarına tam hörmət göstərilməsinə, həmçinin münaqişələrin sülh yolu ilə, danışıqlar vasitəsilə həllinə çağırış, gender bərabərliyini nəzərə alan diplomatiyanın inkişaf etdirilməsini, inklüziv sülh proseslərinə, diplomatiya və xarici siyasətdə qadınların liderliyinin rolunun artırılmasına dair tövsiyələr yer alıb. Milli Məclisin sədri, bu Forumda ədalətli və uzunmüddətli sülhün bərpa olunmasının, münaqişələrin qadın və qızlara təsirlərinin müzakirə olunacağını nəzərə alaraq, Forum iştirakçılarını qadın spikerlər tərəfindən irəli sürülən tövsiyələri bu müzakirələrə daxil etməyə çağırıb.

Sonra Forum digər parlament sədri və parlamentarilərin mövzu haqqında çıxışları və müzakirələrlə davam edib.

*N.BAYRAMLI*

# Strateji tərəfdaşlığın yeni dövrü

## Azərbaycan və ABŞ enerji sektorunda əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirir

SOCAR-ın prezidenti Rövşən Nəcəf ABŞ Dövlət Departamentinin baş müşaviri Rebeka Nef və ABŞ-ın Ticarət və İnkişaf Agentliyinin ölkə üzrə meneceri Sara Leminq ilə görüşüb. Görüşdə Azərbaycan ilə ABŞ arasında enerji sahəsində uzun illər ərzində davam edən uğurlu əməkdaşlıq məmnunluqla qeyd olunub. Cari ilin fevralında "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının ikitərəfli münasibətlərin inkişafı baxımından tarixi əhəmiyyət daşıdığı bildirilib. Bu xüsusda, ölkələrimiz arasında enerji sektorunda əməkdaşlıq üçün geniş perspektivlərin olduğu diqqətə çatdırılıb. SOCAR ilə ABŞ şirkətləri arasında enerji sektorunun müxtəlif istiqamətləri üzrə uğurlu əlaqələrin olduğu vurğulanıb.

Tərəflər TRIPP layihəsinin və Orta Dəhliz üzrə mövcud enerji marşrutlarının regional əməkdaşlıq baxımından önəminə toxunub, digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

ABŞ-ın yüksəksəviyyəli nümayəndə heyətinin Azərbaycana səfəri iki ölkə arasında iqtisadi münasibətlərin çoxşaxəli inkişafı üçün yeni dövrün başlandığını təsdiqləyir. Son aylarda iki dövlət arasında iqtisadi və siyasi bloklarda ardıcıl xarakter alan sıx təmasların artması və qətiyyətli iradənin ortaya qoyulması da Bakı-Vaşinqton münasibətlərinin tamamilə yeni dövrə daxil olmasını təmin etməkdədir. İki ay əvvəl ABŞ Ticarət Palatası, ABŞ Dövlət Departamenti və Ticarət Nazirliyinin nümayəndələrinin Azərbaycana səfəri zamanı ikitərəfli biznes missiyasının təşkili dövlət-özəl sektorunda birbaşa əlaqənin qurulmasını təmin edib. Həmin səfər zamanı energetika və rəqəmsal transformasiya sahəsində anlaşmaların əldə olunması hər iki tərəf üçün fürsətləri genişləndirib.

ABŞ Dövlət Departamentinin baş müşaviri Rebeka Nefin də vurğuladığı kimi iki ölkə arasında imzalanmış mühüm sənədlər ABŞ və Azərbaycan arasında gələcək əməkdaşlıq üçün çərçivəni müəyyən etməklə biznes sektorları üçün də dərin münasibətlər qurur.

## Enerji diplomatiyasının yeni səhifəsi

Şərq-Qərb enerji dəhlizlərinin formalaşmasına hər zaman davamlı dəstək verən Amerika BTC, TANAP, TAP layihələrinin sülh və rifah, əsil enerji həmrəyliyi dəhlizləri olmasını bəyan edərək Azərbaycanın enerji siyasətini alqışlayıb. Son illərdə isə enerji partnyorluğu yeni neft müqavilələri çərçivəsində inkişaf etməkdədir. SOCAR və ABŞ-ın SLB şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-Dəniz" yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu yataqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur. 25 il müddətinə nəzərdə tutulan müqavilənin investisiya portfeli 1 milyard dollar həcmində qiymətləndirilir. Müqavilə blokunda qaz ehtiyatları 25 milyard kubmetr təşkil edən yatağın işlənməsi SOCAR-ın neft hasilatının artmasına və uzunmüddətli strategiyasına mühüm töhfə verəcək.

ABŞ-ın nəhəng enerji korporasiyası - "ExxonMobil" hazırda Azərbaycanda quruda yerləşən neft və qaz ehtiyatlarının potensial inkişafını qiymətləndirir. SOCAR və "ExxonMobil" korporasiyası arasında "Əməkdaşlıq haqqında Memorandum"un imzalanmasından sonra ABŞ-ın məşhur enerji korporasiyası Azərbaycanda yeni fəaliyyət planlarına start verib və Xəzərdə müasir enerji həmrəyliyi halqası dahada böyüməkdədir. "Azəri-Çıraq-Günəşli" layihəsində tərəfdaş olan "Exxon" ötən dövrdə neft emalı və nəqli, enerji sektorunda müasir qazma texnologiyalarının tətbiqi, habelə resursların diversifikasiyasında mövcud olan təcrübəsini yeni perspektivli enerji bloklarında tətbiq etməkdədir. Bu isə Xəzərdə yeni karbohidrogen tədarüklərinin başlanması üçün yaxşı fürsət deməkdir.

Eləcə də Azərbaycanın "yaşıl enerji keçidi" layihələrində, xüsusilə külək və Günəş enerjisi sahəsində Amerika şirkətlərinin iştirakının da genişləndirilməsi təşviq edilməkdədir. Bu baxımdan SOCAR-la əməkdaşlığın yeni mərhələsi



ABŞ-ın ənənəvi enerji ilə bərabər, bərpaolunan enerji sahələrində əməkdaşlığı dərinləşdirmək niyyətlərindən xəbər verir.

## TRIPP layihəsi Şərq-Qərb dəhlizinin yeni modelidir

ABŞ Dövlət Departamentinin baş müşaviri Rebeka Nef və ABŞ-nin Ticarət və İnkişaf Agentliyinin ölkə üzrə meneceri Sara Leminq TRIPP layihəsinə də diqqət çəkib, Bu qlobal nəqliyyat arteriyasının Orta Dəhliz üzrə mövcud enerji marşrutlarının regional əməkdaşlıq baxımından önəminə toxunublar. TRIPP layihəsinin Azərbaycanın iki hissəsini birləşdirməklə bərabər, Ermənistan və digər qonşuların ərazisi vasitəsilə Asiya ilə Avropanı bağlayacaq etibarlı, təhlükəsiz və böyükmiqyaslı daşımalar dəhlizinə çevriləcəyinə əminlik ifadə olunub.

Azərbaycan Orta Dəhlizin ən etibarlı nöqtələrindən birinə çevrilir, Şərq-Qərb istiqamətində daşınmaların tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir. Beynəlxalq ticarət-logistika ailəsi Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda (Orta Dəhliz) ölkəmizə dəstək verir. Bu mühüm amilə Xartiya sənədində geniş yer verilib və Azərbaycanın ABŞ-la birgə regional bağlantılar, o cümlədən Orta Dəhlizin quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafında birgə addımlar atması planlaşdırılır. Hətta Dəhlizdə kritik mineralların qlobal bazarlara tranzitini asanlaşdırmaqla bağlı əməkdaşlıq əsas prioritetlərdən biri kimi müəyyən edilib ki, bu da Vaşinqtonun strateji hərbi-sənaye məhsullarının tranzitində Azərbaycana bel bağlaması böyük hadisədir.

Orta Dəhlizin növbəti həlqəsinə çevrilməkdə olan Zəngəzur qovşağına Amerikanın xüsusi marağı isə "Tramp Marşrutu"nun ərsəyə gəlməsində öz əksini tapmaqdadır. Xartiyada multimodal bağlantı layihəsi kimi TRIPP-in əhəmiyyətinin qeyd edilməsi, habelə ikitərəfli formatda və üçüncü ölkələrlə tərəfdaşlıq vasitəsilə, interkonnektor layihələri kimi birgə layihələrin icrası və təchizat marşrutlarının şaxələndirilməsi istiqamətində addımların atılması barədə niyyətin ifadə olunması Azərbaycan və ABŞ-ın Şərq-Qərb coğrafiyasında nəhəng nəql modelləri qurmasına işarədir. Bu, həmçinin, qlobal bazarın enerji təchizatında Azərbaycanın imkan resusrslarının şaxələnməsi üçün yeni qapıdır.

Beləliklə, SOCAR-la çoxistiqamətli əməkdaşlıq və digər sahələrdə iqtisadi platformaların qurulması ABŞ şirkətlərinin Azərbaycan iqtisadiyyatına axınını stimullaşdırmaqla, ticarət-iqtisadi əlaqələrin yüksək səviyyəyə yüksəlməsini təmin edəcək.

*E. CƏFƏRLİ*

# Dövlət maliyyəsinin idarə olunması vahid platformada birləşdirilir

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi (RDMİS) dövlət maliyyəsinin idarə olunmasında şəffaflıq və operativliyi təmin edən əsas rəqəmsal alətlərdən biri kimi fəaliyyətə başlayıb.

Maliyyə Nazirliyindən "Yeni Azərbaycan"a bildirilib ki, RDMİS vasitəsilə büdcə, xəzinədarlıq, dövlət borcu, mühasibat uçotu və digər maliyyə prosesləri inteqrasiya olunmuş şəkildə idarə olunacaq. Bu yanaşma müxtəlif istiqamətlər üzrə məlumatların vahid platformada birləşdirilməsinə və dövlət qurumları arasında koordinasiyanın daha səmərəli təşkilinə imkan yaradır.

Dövlət maliyyəsində şəffaflığın artırılmasına, nəzarət mexanizmlərinin gücləndirilməsinə və hesabatlılığın yüksəldilməsinə xidmət edən sistem Maliyyə Nazirliyinin bütün informasiya sistemlərinə vahid mərkəzdən daxilolma və idarəetmə imkanını təmin edir. Eyni zamanda, məlumatların mərkəzləşdirilmiş bazada toplanması və real vaxt rejimində maliyyə göstəricilərinə çıxış imkanları qərarların daha dəqiq, operativ və analitik əsaslarla qəbul edilməsinə




şərait yaradacaq.

RDMİS "Büdcə məlumatlarını idarəetmə", "Dövlət maliyyə nəzarəti", "Dövlət proqramlarının və investisiya xərclərinin maliyyələşdirilməsi", "Dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi", "Dövlət müəssisələrinin rəqəmsal monitorinqi", "e-azadolma", "e-müqavilə", "e-mühasibat", "e-rüsum", "e-mədaxil", "Elektron ciddi hesabat blankları", "Xəzinədarlığın rəqəmsal idarə edilməsi" və "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" altsistemləri daxil olmaqla, ümumilikdə 13 altsistemdən ibarətdir.

Artıq aprelin 10-dan etibarən RDMİS-nin "e-müqavilə" altsistemi istifadəyə verilib. Dövlət satınalmalarının şəffaf, operativ və səmərəli təşkilini təmin edən sistem büdcə təşkilatları tərəfindən mal, iş və xidmətlərin satın alınması üzrə müqavilələrin bağlanılması və göndərilməsini həyata keçirir.

Qeyd edək ki, "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli Fərmanı ilə təsdiq edilib.

# Növbəti hədəf - KUBA...

## Pentaqon əməliyyat planı hazırlayır

Prezident Trampın hakimiyyətə gəlişinin ardından qlobal dünyada baş verən proseslər maraqla izlənir. Cəmisi 1 il ərzində təxminən 10-a yaxın münaqişənin dayandırılması və ya sülhün əldə olunması istiqamətində addımlar, Venesuelada hərbi əməliyyatın keçirilməsi nəticəsində prezident Maduronun saxlanılması, Yaxın Şərqdə İranla yeni bir müharibənin başlanılması yeni niazamda mühüm dəyişikliklər sayılır. Atılan addımlar isə davam edir. Belə ki, artıq növbəti hədəf də məlumdur: Kuba. Qeyd edək ki, bu il martın son günlərində ABŞ Prezidenti Latın Amerikasındakı geosiyasi vəziyyətlə bağlı növbəti sərt bəyanatını verərək, Kubanın qısa müddət ərzində böyük bir çöküşlə üzləşəcəyini elan etmişdi. Tramp Kubanı "uğursuz dövlət" və "xaos mənbəyi" adlandıraraq, adada mövcud olan siyasi və iqtisadi sistemin artıq sona çatdığını bildirmişdi. Ağ Ev rəhbəri qeyd etmişdi ki, Kuba rəhbərliyi ölkəni idarə edə bilmir və xalqın rifahını təmin etməkdə acizdir, bu isə yaxın vaxtlarda dövlət strukturunun tamamilə dağılmasına gətirib çıxaracaq. Trampın sözlərinə görə, Kuba bu silsilə çöküşlərin növbəti halqası olacaq və ABŞ bu prosesi yaxından izləyir. Prezident həmçinin vurğulamışdı ki, rejim çökdükdən sonra ABŞ Kubaya yenidən qurulması və demokratikləşməsi üçün lazımi köməyi göstərməyə hazırdır. Aprelin 13-də isə Tramp bildirmişdi ki, İranla bağlı vəziyyət həll edildikdən sonra ABŞ "Kubaya üz döndərə" bilər.

Bir sıra politoloqlar Trampın bu çıxışını Vaşinqtonun Karib hövzəsindəki təsirini artırmaq və kommunist rejimlərə qarşı daha sərt siyasət yürütmək niyyətinin göstəricisi kimi qiymətləndirmişdilər - bu bəyanatın xüsusilə Venesuela və digər region ölkələrində baş verən hadisələrin fonunda səslənməsi, Ağ Evin Latın Amerikası üçün yeni bir "Yol xəritəsi" hazırladığından xəbər verə bilər.



**Trampın göstərişi ilə...**

Yeri gəlmişkən, Pentaqon Kubada mümkün hərbi əməliyyata hazırlıqlara başlamaq üçün göstəriş verib. Məlumatı USA Today mənbələrə istinadən yayıb. Mənbələrin sözlərinə görə, hazırlıqlar ABŞ prezidenti Donald Trampın ada ölkəsinə hücum əmri verməsi variantı üçün həyata keçirilir. Pentaqondan RİA Novosti-yə bildirilib ki, Kubaya qarşı "bir sıra tədbirlər" planlaşdırır və Trampın əmrlərini yerinə yetirməyə hazırdır: "Biz hipotetik ssenarilər barədə fərziyyə irəli sürməyəcəyik. Nazirlik bir sıra ehtiyat planları hazırlayır və Prezidentin əmrlərini ortaya çıxdıqca yerinə yetirməyə hazırdır".

**Arqument yoxdur...**

Siyasi şərhçilər bildirirlər ki, hazırda ABŞ-ın Kubaya qarşı silahlı əməliyyat keçirməsi üçün heç bir arqument və ya əsas gözə dəymir - Pentaqonun da bildirdiyi kimi, əməliyyat yalnız Prezident Trampın göstərişi ilə başlaya bilər. Düşünülür ki, bu əməliyyat baş tutarsa, ağır nəticələrə yol açacaq, hətta söhbət quru əməliyyatından gedirsə, Amerika hərbçiləri arasında ciddi itkilər yaşana bilər.

Xarici media məsələyə münasibət bildirərkən, Kubaya potensial olaraq bombardman aparmaq və ya hücum etmək üçün ABŞ-ın ictimaiyyətə təqdim edilə biləcək konkret əsaslandırmalara ehtiyac duyduğunu yazır. Bu cür əsaslandırmaları İranla müharibədə tapıb - Kuba ilə vəziyyət isə daha mürəkkəb görünür. Bildirilir ki, indiki halda Kuba heç bir şəkildə Amerika Birləşmiş Ştatlarını nə miqyası, nə silahlı qüvvələrinin vəziyyəti, nə də Kuba rəhbərliyinin ideologiyası baxımından təhdid təşkil etmir.

**Uğursuzluqla nəticələnən "Donuzlar körfəzi əməliyyatı"...**

Tarixdə isə bu cür analogiya yaşanıb - 1961-ci ilin 17 aprel - 19 aprel tarixlərində baş vermiş "Donuzlar körfəzi əməliyyatı". Bu hadisə Soyuq müharibə dövrünün ən mühüm epizodlarından biri sayılır. Əməliyyat Kubanın Donuzlar körfəzi ərazisində baş verib və məqsəd Kuba inqilabı vasitəsi ilə hakimiyyətə gələn Fidel Kastro və tərəfdarlarının hakimiyyətdən salınması olub. Əməliyyatın səbəbləri sırasında ən mühüm məqam 1959-cu ildə Fidel Kastro hakimiyyətə gəldikdən sonra ABŞ şirkətlərinə məxsus müəssisələrin milliləşdirdirilməsi, ABŞ ilə münasibətlərin pisləşməsi, SSRİ ilə yaxınlaşma, ABŞ rəhbərliyinin (xüsusilə Con F. Kennedi administrasiyası) Kastronu devirmək üçün plan hazırlaması olub.

Qeyd edək ki, təxminən 1400 Kuba mühaciri "Mühacir hökumət" adı altında (ABŞ tərəfindən təlim keçmiş) Kubaya çıxarıldı. Çıxarma Kubanın cənub sahilində yerləşən Donuzlar körfəzində həyata keçirildi. ABŞ gizli şəkildə hava dəstəyi planlaşdırmışdı, lakin plan tam tətbiq olunmadı. Kuba ordusu və yerli qüvvələr sürətlə cavab verdi və nəticədə hücum edənlərin çoxu öldürüldü və ya əsir alındı. Uğursuzluğun səbəbi isə yerli əhalinin üsyana qalxmaması və ABŞ-ın gözlədiyi kimi, mühacirləri dəstəkləməməsi, Kastronun güclü dəstəyi və sürətli reaksiyası, ABŞ-ın açıq hərbi müdaxilədən çəkinməsi, planlaşdirma və kəşfiyyat səhvləri olmuşdu. Nəticə etibarı ilə, bu uğursuz əməliyyat Fidel Kastro hakimiyyətini daha da möhkəmləndirdi, Kuba SSRİ-yə daha da yaxınlaşdı. Hadisə 1962-ci ildəki Karib böhranı üçün zəmin yaratdı.

**Kuba III dünya müharibəsinə səbəb ola bilərdi...**

Məhz bu ərəfədə SSRİ "Anadır" əməliyyatı keçirdi. SSRİ ilə Kuba arasında hərbi əməkdaşlıq haqqında müqavilə imzalanmasının ardından ABŞ öz raketləriniSSRİyə yaxın ərazilərə yerləşdirdi. Moskva buna cavab olaraq və eyni zamanda Kuba ilə imzalanan müqaviləyə uyğun daha ciddi addımlar atmağa qərar verdi - Kubaya sovet ordusunun bölmələrini göndərmək və "Azadlıq" adasında bir meqaton tutumlu iki növ orta mənzilli ballistik raketlər (cəmi 40 ədəd) və digər hərbi qurğular yerləşdirməklə hərbi bazalar yaratmaq. Kubada sovet hərbi bazalarının yaradılması ideyası Nikita Xruşşova məxsus olub.

Əməliyyat planında Kubaya 50 min nəfər hərbçinin və 3 min nəfər mülki vətəndaşın (mütəxəssislərin) göndərilməsi nəzərdə tutulub. Göndəriləcək ümumi yükün çəkisi isə təxminən 250 min tona yaxın olub.

Sözsüz ki, belə bir karvanın okeanın o tayına keçməsi Amerika kəşfiyyatçılarının diqqətindən yayına bilməzdi. Kreml bunu nəzərə alaraq həm şəxsi heyəti, həm də yükləri ayrı-ayrı limanlardan yola salıb. Şəxsi heyətə elan edilib ki, yüklər Çukotkaya göndərilir. Elə əməliyyatın adı da buradan, Çukotka muxtar dairəsinin mərkəzi olan Anadır adından götürülüb. ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin SSRİdəki agentlərini yayındırmaq üçün gəmilərə daha çox geyim əşyaları və digər gündəlik tələbat malları da yüklənib. Məxfiliyə o dərəcədə riayət edilib ki, xarici ölkələrin SSRİdəki agentura şəbəkəsində heç bir şübhə yaranmayıb. Beləliklə, bütün lazımi "yük"lər və şəxsi heyət heç bir təhlükə ilə üzləşmədən Kubaya çatıblar."Anadır" əməliyyatı həm də yeni müharibənin başlanması üçün zəmin yaradıb. Hətta ABŞ Konqresinin hər iki palatası Kubada hərbi əməliyyatların keçirilməsinə səs verib. Rəsmilər arasında bir gecədə Kubanı bombalamaq kimi fikirlər də səsləndirilib. Amma təbii ki, həmin dövrdə ABŞ-ın prezidenti olan Con Kennedi Kubada hərbi əməliyyatların keçirilməsindən sonra SSRİ-nin reaksiyasını da nəzərə alıb. Bu real olaraq III dünya müharibəsinin başlanması demək idi. Kennedi hələ ki, Kubanı dəniz mühasirəsinə salmaqla kifayətlənib.

**Kuba ordusunun "onurğası" : Hərbi Kəşifiyyat...**

Bu gün SSRİ mövcud olmasa da, hərbi ekspertlər Kubanın müdafiə gücünü heç də aşağı saymır. Kubanın ən güclü ordu bölməsi olan Hərbi Kəşfiyyat İdarəsi (La Direccion de Inteligencia Militar, DIM) Kuba Respublikası İnqilabi Silahlı Qüvvələr Nazirliyinin (El Ministerio de las Fuerzas Armadas Revolucionarias de la Republica de Cuba, MINFAR) tərkibindəki hərbi komandanlıq orqanıdır. Açıq mənbələrə görə, DIM dörd əsas bölməyə və ümumi bölməyə bölünür:

I Bölmə - Döyüş Kəşfiyyatı. Bölmə Kuba Silahlı Qüvvələrinin hərbi və qoşun kəşfiyyat bölmələrinə, o cümlədən Quantanamo körfəzindəki Amerika bazasına bitişik ərazini qorumaqdan məsul olan Antonio Maceo Sərhəd Briqadasının kəşfiyyat bölmələrinə nəzarət edir - bölmənin əməliyyat komandanlığına düşmən ərazisində döyüş, kəşfiyyat və təxribat missiyaları aparmaq üçün nəzərdə tutulmuş elit hava hücum briqadası "Qara Arılar" daxildir. O, Şərqi Asiya, Afrika və Latın Amerikasında beynəlxalq vəzifələrinin yerinə yetirilməsində fərqlənib.

II Bölmə - Əməliyyat Kəşfiyyatı. Bölmə Qərargah, Katiblik və Xüsusi Təhlükəsizlik Rejimi və digər bölmələrə ayrılır. Bu bölmə hətta Quantanamo körfəzindəki ABŞ hərbi bazasının şəxsi heyəti və komandanlığı arasında əməliyyat mövqelərinin yaradılmasına və ABŞ daxilində missiyaların yerinə yetirilməsinə yönəlmiş xüsusi kəşfiyyat missiyalarına cavabdehdir;

III Bölmə - Kəşfiyyat Təhlili. Bu bölmə 4 qrupdan ibarətdir: Situasiya Təhlili, ABŞ, Avropa və dünyanin qalan hissəsi (Latın Amerikası, Karib dənizi və Afrika/Yaxın Şərq).

IV Bölmə - Elektron Kəşfiyyat (SIGINT). Bu bölmə adada, regionda və ABŞ-da ABŞ hərbi kəşfiyyat rabitəsini izləməkdən məsul strateji əhəmiyyətli bir bölmə olan Elektron Kəşfiyyat Briqadasına nəzarət edir. Beləliklə, siyasətçilər Kubaya hücumun Venesuela qədər asan olmayacağını düşünür.

***P.İSMAYILOV***

# ABŞ - İran: Atəşkəs uzadılacaq?

Hazırda İran-ABŞ-İsrail müharibəsi dünya gündəliyinin mərkəzində qalmaqda davam edir. Bu da onunla bağlıdır ki, enerji resursları ilə zəngin olan bölgədə gedən regional müharibənin təsirləri qlobal səciyyə daşıyır. Hörmüz boğazı ətrafında gərginliyin davam etməsi, müharibənin uzanması və əhatə dairəsinin genişlənməsi  dünya, xüsusilə də qlobal iqtisadiyyat üçün qarşısıalınmaz proseslərə rəvac verə bilər.

Buna görə də ABŞ-la İran arasında aprelin 8-nə keçən gecə ikihəftəlik atəşkəs barədə razılığa gəlinməsi dünya üçün ümid işığı kimi göründü. Razılaşma çərçivəsində aprelin 11-12-də İslamabadda Pakistanın vasitəçiliyi ilə İran və ABŞ arasında danışıqlar aparılıb. Təxminən 21 saat davam edən danışıqlar tərəflərin mövqelərindəki fərqlərə görə nəticəsiz başa çatıb.

## "Bloomberg": ABŞ və İran atəşkəsin daha iki həftə uzadılmasını nəzərdən keçirirlər

Elan olunan ikihəftəlik atəşkəsin bitməsinə saylı günlər qalır. Bəs aprelin 21-dən sonra yeni atəşkəs olacaqmı? Hazırda narahatlıq içində olan bütün dünya bu sualın cavabını gözləyir.

"ABŞ və İran sülh sazişi üzrə danışıqları davam etdirmək üçün daha çox vaxt qazanmaq məqsədilə çərşənbə axşamı günü müddəti bitən mövcud atəşkəsin daha iki həftə uzadılmasını nəzərdən keçirirlər".

Bu barədə "Bloomberg" məlumatlı mənbəyə istinadən məlumat yayıb. Qeyd olunur ki, tərəflər arasında vasitəçilər ən mübahisəli məsələləri müzakirə etmək məqsədilə texniki məsləhətləşmələr təşkil etmək üçün səylər göstərirlər.

Əsas mövzular arasında Hörmüz boğazında əməliyyatların bərpasının mümkünlüyü və İranda uranın zənginləşdirilməsi ilə bağlı məsələlər var. Mənbənin sözlərinə görə, müzakirələr ilkin xarakter daşıyır və hələlik yekun qərarlar qəbul edilməyib.

## Vasitəçilər ortaq məxrəc tapmaq axtarışında

Nəticəsiz başa çatsa da, İslamabad danışıqlarının baş tutması üçün Pakistan rəhbərliyinin israrlı səylər göstərməsi bütün səviyyələrdə təqdir olunur. Necə deyərlər, ən pis atəşkəs və ən pis danışıqlar ən yaxşı müharibədən daha yaxşıdır. İlk uğursuzluğa baxmayaraq, Pakistan rəhbərliyi atəşkəsin uzadılması və yeni danışıqlar raundunun təşkili məqsədilə fəal çalışmalar sərgiləyir. İranın Xarici İşlər Nazirliyinin rəsmisi İsmayıl Bəqai bildirib ki, Pakistanın vasitəçiliyi ilə ABŞ və İran arasında mesaj mübadiləsi davam edir. "İran nümayəndə heyətinin Tehrana qayıtdığı bazar günündən (12 aprel - red.) bəri Pakistan vasitəsilə bir neçə mesaj ötürülüb", - deyə İ.Bəqai vurğulayıb.

Eyni zamanda, Pakistan Ordusunun baş komandanı Asim Munir İran və ABŞ arasında yeni danışıqlar raunduna hazırlıq fonunda Tehrana səfər edib. "Tasnim" agentliyinin məlumatna görə, Munirin səfəri Vaşinqtonun mövqeyini Tehrana çatdırmaq və İran-ABŞ danışıqlarının ikinci raunduna hazırlıq məqsədi daşıyıb.

Pakistan rəhbərliyi həmçinin İran-ABŞ-İsrail müharibəsində yeni atəşkəsə nail olunması məsələsinin müzakirələrini region dövlətləri ilə aparır.  Artıq Baş nazir Şahbaz Şərif Ciddədə Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanla görüşüb. Görüşdə ABŞ ilə İran arasında növbəti atəşkəsə nail olunması ətrafında geniş fikir mübadiləsi aparılıb. Pakistanın Baş naziri belə müzakirələri həmçinin Dohada Qətər əmiri Təmim bin Həməd Al Tani ilə aparmaq niyyətindədir.

Digər vasitəçi dövlətlər də, necə deyərlər, boş dayanmırlar. Xüsusilə də Misir və Türkiyə rəsmiləri ABŞ və İran arasında mövcud fikir ayrılıqlarını aradan qaldırmaq və aprelin 21-də atəşkəs razılaşmasının müddəti bitənədək danışıqların yeni raundunu təşkil etməyə səy göstərirlər.



## Tərəflər nə deyirlər?

Hələlik İran və ABŞ atəşkəsin uzadılması ilə bağlı konkret fikir ifadə etməkdən çəkinirlər. Tehrandan və Vaşinqtondan gələn açıqlamalarda üst-üstə düşməyən məqamlar çoxdur. "ABŞ dəniz blokadasını davam etdirərsə, Qırmızı dəniz, eləcə də Fars və Oman körfəzləri vasitəsilə ticarəti kəsə bilərik". Bu rtorika ilə İran Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının rəhbəri Əli Abdullahi çıxış edib. Onun sözlərinə görə, əgər ABŞ blokadanı davam etdirərsə və İranın ticarət gəmiləri və neft tankerlərinə təhlükə yaradarsa, bu, atəşkəs rejiminin pozulmasına gətirib çıxara bilər.

Vaşinqton da atəşkəsin davam etdirilməsinə "hə" deməyə tələsmir. "ABŞ hələ İrana atəşkəs rejiminin müddətini uzatmağı təklif etməyib". Bu barədə Ağ Evin mətbuat katibi Karolayn Levitt jurnalistlər üçün keçirilən brifinqdə bildirib. "Bu səhər (dünən - red.) mən atəşkəs rejiminin uzadılmasının rəsmən istədiyimiz barədə əsassız xəbərlər gördüm. Bu, doğru deyil", - deyə K.Levitt vurğulayıb.

Onun sözlərinə görə, ABŞ və İran fəal şəkildə danışıqlar aparmaqda davam edir: "Bu həftə siz vitse-prezidentdən  (Cey Di Vens) və Prezidentdən ( Donald Tramp) bu danışıqların səmərəli olduğunu və davam etdiyini eşitdiniz, hazırda vəziyyət məhz bundan ibarətdir".

Ağ Evin mətbuat katibi bildirib ki, ABŞ İranla saziş bağlanması perspektivlərinə müsbət yanaşır. Jurnalistin İranla danışıqların ikinci raundunun Pakistanın paytaxtı İslamabadda keçirilib-keçirilməyəcəyi ilə bağlı sualına o, danışıqların elə ötən dəfə olduğu yerdə keçiriləcəyini vurğulayıb.

Qeyd edək ki, İran da danışıqların ikinci raundunun məhz Pakistanda keçirilməsini israr edir.

***Mübariz FEYİZLİ***

# ÖMRÜN KAMİLLİK ZİRVƏSİNDƏ



Filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, Əməkdar müəllim, Azərbaycan dilçilik elminə beynəlxalq miqyasda böyük nüfuz qazandıran, ölkəmizin elm xəzinəsinə sanballı töhfələr verən Cəfər Cəfərovun 95 illik yubileyi qeyd olunur. C.Cəfərov "Nitq hissələrində keçid prosesləri" (1983), "Müasir Azərbaycan ədəbi dilində inkarlığın ifadə vasitələri" (2000)", "Nitq hissələrində keçid prosesləri və konversiya" (2009), "Müasir Azərbaycan dili" monoqrafiyalarının və "Müasir Azərbaycan dilinin morfologiyası", "Linqivistik təhlil nümunələri" kimi bir sıra dərsliklərin müəllifidir. Bu əsərlərdə Azərbaycan dilçiliyində ən aktual məsələlər, mürəkkəb və mübahisəli problemlər, anlayışlar sisteminin kateqorial əlamətlərinin elmi əsasları müəyyənləşdirilmişdir. Onun əsərlərində müasir Azərbaycan ədəbi dilində leksikologiya, semasiologiya, morfologiya, derivatologiya və başqa sahələrlə bağlı nəzəri fikirləri elmi əhəmiyyəti ilə seçilir.

Cəfər Cəfərov 1931-ci ildə Ermənistan SSR-in Əştərək rayonunun Hamamlı kəndində anadan olmuşdur. İrəvanın şimal-qərbindən 40 km məsafədə yerləşən Hamamlı balaca bir kənd olsa da, ziyalıları ilə tanınırdı.

Professor Cəfər Cəfərovun elmi fəaliyyətinin əsas istiqamətlərindən birini morfologiyanın aktual məsələlərinin tədqiqi təşkil edir. Dilçilikdə qrammatik kateqoriya kimi Müasir Azərbaycan ədəbi dilində inkarlıq və onun ifadə vasitələri C.Cəfərov tərəfindən sistemli şəkildə tədqiq edilmişdir. Bu tədqiqatda inkarlıq anlayışı, onun xüsusiyyətləri və məntiqi inkarlıq ilə qrammatik inkarlıq kateqoriyasının əlamətləri müəyyənləşdirilir. İnkarlıq anlayışının təfəkkürə, dilə, məntiqə və qrammatikaya aid olan münasibətlərindən bəhs edilir. 1965-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almış, 1969-cu ildə isə APİ-də Azərbaycan dilçiliyi kafedrasının dosenti vəzifəsinə seçilmişdir.

1973-cü ilin sentyabrında doktorluq dissertasiyasını tamamlamaq üçün 2 illik doktoranturaya göndərilmiş, 1976-cı ildə doktoranturanı tamamlayaraq yenidən müəllimlik etmişdir.

C.Cəfərov 1992-ci ildə doktorluq dissertasiyasını müdafiə edərək filo-logiya elmləri doktoru alimlik dərəcəsini almış və 1993-cü ildə Müasir Azərbaycan dili kafedrasına professor vəzifəsinə seçilmişdir. Professor C.Cəfərovun elmi əsərlərində Azərbaycan dilçiliyində morfologiyanın bir sıra mühüm problemləri öz həllini tapmışdır. Xüsusilə, Azərbaycan dilinin morfologiyasında mühüm elmi əhəmiyyətə malik olan aktual məsələlərdən biri olan nitq hissələri, onlar arasında qarşılıqlı qanunauyğunluqlar linqvistik aspektdə ilk dəfə professor Cəfər Cəfərovun tədqiqatlarında araşdırılmışdır. Nitq hissələri ilə bağlı faktların dərindən təhlil edilməsi, onların məntiqi cəhətdən ümumiləşdirilməsi dilçilikdə yeni elmi konsepsiyanın formalaşmasına səbəb olmuşdur. Feilin məna növlərinin lüğətdə verilməsi, inkarlığın ifadə vasitələri, tərkibində say olan mürəkkəb söz və birləşmələr, nitq hissələri və onların spesifik xüsusiyyətləri anlayışları və onunla bağlı mübahisəli problemlər həll olunmuşdur. Bununla yanaşı, qrammatika və qrammatik quruluş, analitik və sintaktik yolla yaranan sözlər, sözün qrammatik formalarının yaranması, qrammatik mənaların ifadə formaları, nitq hissələrinin təsnifi prinsipləri, sözdüzəldici və forma düzəldici şəkilçilərin təsnifində linqvistik meyarlar ilk dəfə alimin tədqiqatlarında müəyyənləşdirilmişdir.

Nitq hissələrində keçid prosesi və konversiya yeni metodoloji prinsip əsasında C.Cəfərovun yaradıcılığında araşdırılmış və Azərbaycan dilçiliyində bu sahə ilə bağlı elmi konsepsiyanın yaradılması alimin adı ilə bağlıdır. Onun doktorluq dissertasiyasında eləcə də nitq hissələrində keçid prosesi və konversiya adlı fundamental monoqrafiyasında mühüm nəzəri məsələlər öz həllini tapmışdır. Azərbaycan dilində nitq hissələrində keçid prosesləri və dilin daxili inkişaf qanununa uyğun olaraq baş verən proseslər, leksik, morfoloji, sintaktik və semantik sistemlər arasındakı əlaqə, onların bir-birinə qarşılıqlı təsiri, o cümlədən də diaxronik və sinxronik inkişaf xüsusiyyətləri zəngin dil faktları ilə təhlil edilmişdir.

Cəfər müəllim böyük həyat yolu keçmiş, elmdə yüksək nailiyyətlərə nail olmuşdur. Əştərək rayonunun Hamamlı kəndi, onun təbiəti, bu qədim oğuz yurdu olan kənddən əsrlərdən-əsrlərə yadigar qalan qədim mədəniyyət abidələri, adət-ənənələr Cəfər müəllimin yaddaşında dərin kök salmışdır. O, illərlə yaddaşında saxladığı, qürur duyduğu, fəxr etdiyi el-obasını əbədiləşdirmək, tarixin yaddaşına yazmaq məqsədilə bu yerlərin onomastik vahidləri haqqında "Qərbi Azərbaycanın Əştərək rayonunun bəzi onomastik vahidlərinin tarixi-linqvistik təhlili", "Hamamlı kəndi ilə bağlı etnonim və şəxs adları", "Hamamlı şivəsinə aid lüğət" "Hamamlı şi-vəsinin leksikası" adlı əsərlərini yazaraq Əştərək rayonu və Hamamlı kəndinin adlarını təhlil etmiş, onları əbədiləşdirmişdir. O, 1971-ci ildə yazdığı "Hamamlı kənd şivəsinin leksikasına dair" əsərində İrəvandan 40 km şimali-qərbdə yerləşən doğma kəndinin və onun əhatəsində olan Cadqıran, Qaracörən, Qarabulaq, Kirəşdi, Saçlı, Sərinsəvəng, İlançalan və s. kimi yüzlərlə kəndin türk mənşəli olması və onların əksəriyyətinin adlarının 1971-ci ilə kimi dəyişdirildiyi barədə ürək yanğısı ilə yazır. Bu da Cəfər müəllimin əsl vətəndaşlıq mövqeyidir.

C.Cəfərov Müasir Azərbaycan dili fənninin müxtəlif şöbələrinə - leksikologiya və morfologiyaya aid bir sıra əsərlərin müəllifidir. C.Cəfərovun dialektologiya, həmçinin onomastika, nitq mədəniyyətinə aid də bir sıra fundamental əsərləri çap edilmişdir. Onun "Substantivləşmə yolu ilə ono-mastik vahidlərin əmələ gəlməsi" (1987), "Substantivləşmə yolu ilə terminoloji vahidlərin əmələ gəlməsi" (1988), "Dilimizdə inkar vasitələrdən istifadə məsələsinə dair" (1986) və s. əsərləri nəşr edilmişdir. Alim dilçiliyin bir sıra sahələrinə aid xeyli sayda öz dəyəri ilə seçilən əsərlərin müəllifidir. C.Cəfərov Azərbaycanın dilçilik elminin müxtəlif sahələri ilə bağlı tədqiqatlar aparmış, pedaqoji fəaliyyəti ilə yanaşı ana dilimizin çox mühüm elmi problemlərini tədqiq etmişdir. Zəngin və əhatəli yaradıcılıq erudisiyası ilə fərqlənən C.Cəfərov filologiyamızın müxtəlif nəzəri məsələlərini araşdırmışdır. Bununla yanaşı peşəkar pedaqoq kimi fəaliyyət göstərdiyi dövrlərdə gənc nəslin şəxsiyyət kimi formalaşmasında mühüm rolu olmuşdur. Onun elmi-pedaqoji fəaliyyəti əslində son dərəcə orijinal bir şəxsiyyətin insani xarakterinin güclü bir komponenti, müəyyən dərəcədə onun təmiz mənəvi dünyasının işıqlı təzahürüdür. İstedadlı bir alim kimi öz məntiqi mühakimələri ilə auditoriyanı ələ ala bilən professional pedaqoq, çoxsaylı və nəzəri problemlərlə zəngin və əhatəli elmi yaradıcılığı, canlı elmi mülahizələri alim, müəllim şəxsiyyətinin təzahürüdür. Alim, ali pedaqoji təhsilin inkişafına xüsusi diqqət yetirən və onun nəzəri problemləri istiqamətində bir sıra dərsliklərin müəllifi kimi müasir Azərbaycan ədəbi dilinin araşdırılmasında, tədrisində və inkişafında xüsusi xidmət göstərmişdir. Ömrünün 72 ilini Azərbaycan təhsilinə, Azərbaycan dilçiliyinə, ana dilimizin inkişafına həsr etmiş görkəmli alim elmi yaradıcılıqla yanaşı, uzun illər pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Cəfər Cəfərov dilçilik üzrə təşkil olunmuş müxtəlif konfrans və seminarlarda dəfələrlə iştirak edərək maraqlı məruzələrlə çıxış etmişdir. Onun pedaqoji kadrların, dilçilik elmi üzrə mütəxəssislərin yetişdirilməsində əməyini xüsusi qeyd etmək lazımdır. Professor C.Cəfərov BDU-nun nəzdində filologiya və jurnalistika elmləri doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının üzvü, onlarla elmlər namizədinin elmi rəhbəri olmuşdur.

Müəllimlik, bilik və bacarığını gənc nəslə mənimsətmək onun əqidəsinin əsasını təşkil edirdi. Elmin inkişafında və pedaqoji fəaliyyətində göstərdiyi xidmətlərə görə 2006-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı və 2012-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. Professor Cəfər Cəfərovun dərin elmi təfəkkürü, pedaqoji ustalığı, yüksək insani keyfiyyətləri və keçirdiyi mənalı ömür yolu onu Azərbaycanın dilçi korifeyləri səviyyəsinə yüksəltmişdir. Filologiyamızın inkişafında mühüm xidmətləri olan fədakar elm xadimi, Prezident təqaüdçüsü, Əməkdar müəllim, filologiya elmləri doktoru, professor Cəfər Cəfərovu 95 illik yubileyi münasibəti ilə təbrik edir və böyük uğurlar arzu edirik.

***Sayalı SADIQOVA,***
***Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmləri doktoru, professor***

# Macyar nəyi dəyişəcək?

## Orbanın siyasi kursuna müəyyən korrektələr gözlənilir - əsas problem iqtisadi vəziyyətdir

Aprelin 12-də yüksək seçici fəallığı (təxminən 80 faiz) ilə baş tutmuş Macarıstandakı parlament seçkiləri "Fides-CDNP ittifaqı"nın 16 illik hakimiyyətinə son qoydu. Xatırladaq ki, seçkilərdə Peter Macyarın rəhbərlik etjdiyi Tisza Partiyası qələbə qazanıb və beləliklə də parlamentdəki 199 yerdən 138-nə sahib olub. Keçmiş iqtidar partiyası isə 55 mandat qazana bilib.

Qeyd edək ki, Avropa İttifaqının üzvü olsa da, özünün siyasi kursu olan Macarıstan dövlətinin qarşıdakı mərhələdə hansı addımları atacağı hər kəsdə maraq doğurur. Macarıstan adətən Aİ daxilində bir sıra qərarlarla razılaşmayan, özünün milli maraqlarını ön plana çəkən bir ölkə kimi tanınıb. Bundan sonra bu kursda hansı yeniliklərin olacağı ilə bağlı müəyyən fikirlər irəli sürülür.

### Yeni islahatlar anonsu...

Yeri gəlmişkən, seçkilərdə qələbə qazanan Tissa Partiyasının lideri Peter Macyar beynəlxalq mətbuat konfransı keçirərək ölkənin gələcək siyasi kursu ilə bağlı ilkin mesajlarını verib. Budapeştdə baş tutan tədbirdə çıxış edən Macyar bildirib ki, seçkilərdə əldə olunan üçdə iki parlament çoxluğu hökumətə geniş islahatlar aparmaq imkanı yaradır. O vurğulayıb ki, əsas prioritetlər arasında hüququn aliliyinin bərpası, korrupsiyaya qarşı mübarizə və dövlət institutlarının gücləndirilməsi yer alacaq.

Yeni hökumət başçısı, həmçinin qeyd edib ki, Macarıstanın Avropa İttifaqı ilə münasibətlərinin yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, ölkə beynəlxalq tərəfdaşlarla əməkdaşlığı gücləndirməyə və Avropa dəyərlərinə daha sıx inteqrasiya etməyə çalışacaq. Seçkilərin nəticələrinə əsasən, Tissa Partiyası parlamentdə konstitusiya dəyişiklikləri etməyə imkan verən üstünlük əldə edib. Bu isə uzun illər hakimiyyətdə olmuş əvvəlki hökumətin qəbul etdiyi qanunların yenidən nəzərdən keçirilməsinə də şərait yaradır.

Macyar çıxışında, həmçinin bildirib ki, hökumətin ilk addımları arasında iqtisadi sabitliyin təmin olunması və ictimai xidmətlərin yaxşılaşdırılması olacaq. O, vətəndaşların seçkilərdə göstərdiyi yüksək fəallığın ölkədə dəyişiklik istəyinin bariz göstəricisi olduğunu diqqətə çatdırıb.



Bu arada Macarıstan Prezidenti Tamaş Şujok Peter Macyara yeni hökuməti formalaşdırmağı tapşırıb. Dövlət başçısı, həmçinin yeni parlamentin ilk iclasını 6-7 may tarixlərinə təyin etmək niyyətindədir. Bu iclasda Macyar yeni baş nazir seçiləcək. "Respublika Prezidenti mənə bildirib ki, qalib partiyanın lideri kimi yeni parlamentin ilk iclasında baş nazir seçiləcəyəm və hökumət qurmaq səlahiyyəti mənə veriləcək", - deyə Macyar ölkə prezidenti ilə görüşdən sonra jurnalistlərə açıqlaması zamanı bildirib.

O, həmçinin hökumətin bu ayın ortalarınadək formalaşdırılacağını və fəaliyyətə başlayacağını vurğulayıb.

### İqtisadi vəziyyət çətindir

Siyasi ekspertlər Macarıstanda xüsusilə iqtisadi islahatlara ehtiyac olduğunu bildirir. Ölkə hələ də Aİ-nin həddindən artıq kəsir proseduruna tabedir və maliyyə düzəlişlərinə ehtiyac ÜDM-in təxminən 1,7 faizi səviyyəsində qiymətləndirilir. Fevral ayına qədər illik kəsirin demək olar ki, yarısı qismən seçkiqabağı xərclər və yeni administrasiyaya artan təzyiq səbəbindən tükənib.

Buna baxmayaraq, Macyarın kabineti genişmiqyaslı islahatlar proqramı həyata keçirmək niyyətindədir. Prioritetlərə demokratik institutların bərpası, dövlət xərcləri üzərində nəzarətin gücləndirilməsi və dövlətə məxsus medianın islahatı daxildir. Eyni zamanda, hökumət böhran içində olduğu qiymətləndirilən səhiyyə və təhsil sistemlərinin modernləşdirilməsinə diqqət yetirməyi planlaşdırır.

Avropa İttifaqı ilə münasibətlərin yenidən başlaması da vacib məsələ kimi diqqət mərkəzində olacaq. Budapeşt ümid edir ki, qanunun aliliyi tələblərinə cavab vermək "dondurulmuş" milyardlarla avro vəsaiti açacaq. Eyni zamanda, hakimiyyət orqanları Rusiyanın təsirini azaltmaq, NATO və Aİ ilə əməkdaşlığı gücləndirmək niyyətində olduqlarını da bəyan edir.

Avropa İttifaqı (Aİ) Peter Macyarın Aİ-dən təxminən 35 milyard avro maliyyə vəsaitinə çıxış əldə etməsi üçün 27 şərtin yerinə yetirilməsini gözləyir. Bu barədə "Financial Times" nəşri məlumat yayıb. Məlumata görə, şərtlər arasında ölkədə islahatların həyata keçirilməsi, Aİ qaydalarına uyğunluğun təmin edilməsi və s. məsələlər yer alıb. Aİ bu tələbləri Macarıstanla münasibətlərin yaxşılaşdırılması və maliyyə vəsaitlərinin düzgün istifadəsini təmin etmək üçün irəli sürür. Eyni zamanda qeyd olunur ki, Baş nazir Viktor Orban dövründə Aİ ilə gərginliklər artıb və Budapeşt Ukraynaya maliyyə yardımı və Rusiya ilə bağlı sanksiya paketlərini bloklayıb. Ukrayna üçün ayrılan maliyyə planları isə Aİ daxilində müzakirə olunmağa davam edir.

### Rusiyaya münasibət dəyişəcəkmi?

Siyasi ekspertlərin fikrincə, Macarıstanda bu gün müzakirə olunan əsas məsələ Ukrayna müharibəsinə və konkret olaraq Rusiyaya münasibətlə bağlıdır. Qeyd edək ki, Peter Macyar hələ seçki kampaniyası dövründə Ukraynanı Rusiya təcavüzünün qurbanı adlandırmışdı və telefonla danışacaqları təqdirdə Vladimir Putinə müharibəni dayandırmaq üçün müraciət edəcəyini bildirmişdi. "Macarıstanda hər kəs Ukraynanın bu müharibənin qurbanı olduğunu bilir. Və 1994-cü il Budapeşt Memorandumuna əsasən, istənilən Ukrayna hökuməti öz ərazi bütövlüyünü və suverenliyini müdafiə etməyə borcludur. Heç kim onlara sülh danışıqları aparmaq və ya sülh müqaviləsi imzalamaq üçün şərtləri diqtə etməməlidir. Biz heç bir ölkədən öz ərazisindən imtina etməsini istəyə bilmərik".

Macyarın mövqeyi əvvəlki hökumətdən fərqlənir - bu, daha çox Aİ-nin diqtə etdiyi siyasətin yürüdülməsi deməkdir. Əvvəlki iqtidar məhz enerji məsələsinə görə, Ukraynaya hərbi yardım göstərməkdən imtina etmişdi və Avropa İttifaqının da dəstəyini əngəlləmişdi. Budapeşt dəfələrlə Rusiyaya qarşı sanksiyaların tətbiqinə də mane olmuşdu - amma hər dəfə Brüsseldən müəyyən güzəştlər müqabilində vetonu ləğv etməyə razı olmuşdu. 4 illik müharibə ərzində Orban Kiyevə yalnız bir dəfə - Macarıstanın Avropa İttifaqına sədrlik etdiyi 2024-cü ilin yayında səfər edib. Bundan əvvəl Macarıstanın baş naziri Ukraynaya yalnız 2012-ci ildə səfər etmişdi.

### 90 milyardlıq müəmma...

O ki qaldı, ən mühüm müzakirə predmeti olan 90 milyardlıq yardıma, Macyar bununla bağlı da fikirlərini bölüşüb: "Ukraynaya 90 milyard avroluq kreditlə bağlı, dürüst desəm, burada nəyin müzakirə edilə biləcəyini tam olaraq başa düşmürəm, çünki dekabr ayında Avropa Şurasının iclası zamanı Viktor Orbana və bir neçə digər ölkəyə iştirak üçün imkan verilmədi. Avropa Şurası Macarıstanın, ehtimal ki, Slovakiya və Çexiyanın bu 90 milyard avroluq kredit üzrə öhdəliklər götürməyəcəyinə qərar verdi. Bu, bizim ölkələrimizin itradəsindən kənarda təsdiq edildi. Mən bunu tam başa düşmürəm və bu məsələ ilə bağlı Avropa liderləri ilə məsləhətləşəcəyəm. Şəxsi fikrim budur ki, Macarıstan bu məsələdən kənarda qalmalıdır. Macarıstan çox çətin maliyyə vəziyyətindədir."

Qeyd edək ki, Avropa İttifaqı 2025-ci ilin dekabr ayında keçirilən sammitində Ukraynaya 90 milyard dollarlıq kredit verməyə razı oldu. Aİ ölkələri dondurulmuş Rusiya aktivlərindən istifadə barədə razılığa gələ bilmədikdən sonra (əsasən Rusiya Mərkəzi Bankının vəsaitlərinin əksəriyyətinə sahib olan və əlaqəli müsadirə risklərindən qorxan Belçikanın etirazları səbəbindən) Kiyevi özləri maliyyələşdirməyə qərar verdilər.

Güzəşt olaraq (vetodan yayınmaq üçün) Aİ Macarıstana və digər narazı ölkələrə Ukraynanın maliyyələşdirilməsində iştirak etməməyə, sadəcə onu təsdiqləməyə icazə verdi. Qələbəsindən sonra Macyar Macarıstanın kreditlə öhdəlik götürmək niyyətində olmadığını bildirdi.

Beliləklə, yeni hökumət müəyyən mənada özündən əvvəlki xətti davam etdirəcək kimi görünür. Hər bir halda, Macyarın indiki çətin maliyyə problemləri arasında Aİ-nin öhdəliklərinə imza atması onun üçün xoş gələcək vəd etmir.

***SADİQ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# "Kral xəstəliyi"nin reallığı...



## Hemofiliya haqqında faktlar

Dünyada, həmçinin ölkəmizdə geniş yayılmış irsi qan xəstəliyindən biri hemofiliyadır. Xəstəlik insan qanında laxtalanma faktorlarının çatışmazlığı nəticəsində əmələ gəlir və irsən ötürülür. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, milli və irqi mənsubiyyətindən asılı olmayaraq, təxminən yeni doğulan 5 min oğlan uşağından biri hemofiliya A ilə doğulur. Qanda zülalın miqdarı nə qədər azdırsa, xəstəlik də bir o qədər şiddətli olur.

Hemofiliya B isə faktor 9 zülalın əskikliyindən qaynaqlanır. Xəstəliyin kliniki əlamətləri hemofiliya A-dan seçilmir. Hemofiliya müxtəlif qanaxma və qansızmalarla müşayiət edilir. Hemofiliyaya "Viktoriya" və ya "kral" xəstəliyi də deyilir, çünki xəstəliyin ən məşhur daşıyıcısı Britaniya kraliçası Viktoriya idi. Onun vasitəsilə də övladlarına genetik olaraq ötürülüb.

Onu da qeyd etmək lazımdır ki, hemofiliyalı xəstələr dişlərinin sağlamlığına xüsusi diqqət yetirməlidirlər, çünki dişlərin çəkilməsi kimi əməliyyatlar hemofiliyalı xəstələrdə güclü qanaxma ilə müşayiət olunur. Onların yanında daim bir səfər yoldaşlarının olması da məsləhət görülür, hər hansı xoşagəlməz vəziyyət zamanı vaxtında və düzgün yardım göstərə bilsinlər. Əgər hemofiliyalı xəstə təkbaşına səyahət edirsə, onun hemofiliya A-dan əziyyət çəkdiyini bildirən qolbaq, boyunbağı və ya nişan taxması zəruridir. Bu, hər hansı xoşagəlməz hadisə ilə üzləşən xəstə ilə ünsiyyət qurmaq mümkün olmadığı halda xüsusilə faydalıdır. Çünki məhz belə əşyaların köməyi ilə tibb işçiləri zərərçəkənin hemofiliya xəstəsi olduğunu anlaya və lazımi yardım göstərməklə onun həyatını xilas edə bilərlər.

## Xəstələrin sayı 400 mindən çoxdur

Aprelin 17-si Ümumdünya Hemofiliya Günü qeyd olunur. Bu tarixin seçilməsi Dünya Hemofiliya Federasiyasını yaratmış Frenk Şnaybelin doğum günü ilə əlaqədardır. Aparılan bəzi hesablamalara görə, hazırda dünyada hemofiliyalı xəstələrin sayı 400 mindən çoxdur. Son vaxtlara qədər çox nadir hallarda bu xəstəlikdən əziyyət çəkən uşaqlara yetkin yaşına qədər yaşamaq nəsib olurdu. Hazırda müalicə edilmədən yaşayan hemofiliya xəstələrinin orta ömrü təxminən 30 il təşkil edir, 12 yaşında isə əlil olaraq əsa və ya təkərli arabalarla hərəkət edirlər.

## Azərbaycanda vəziyyət necədir?

Hemofiliya Xəstələrinin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, hazırda Azərbaycanda 1700-dən çox hemofiliyalı xəstələr qeydiyyatdadır: "2006-cı ildən indiyə qədər ölkəmizdə hemofiliyalı xəstələr dövlətin qayğısı nəticəsində dərman preparatları ilə təmin olunurlar. 2005-ci ildə Dövlət Proqramı qəbul olunandan və 2006-cı ildən dərman preparatları gətiriləndən sonra bu xəstəlikdən ölüm halları minimuma enib. Lakin beynəlxalq statistikaya görə, Azərbaycanda 1700 pasiyentin olması çoxdur. Çünki hər 10 min kişiyə bir nəfər hemofiliyalı xəstə düşürsə, maksimum 1000 nəfər xəstənin olması daha məqsədəuyğun olardı".

## Bunlar hemofiliyalı xəstələrə qadağandır...

A.Hüseynov qeyd edib ki, hemofiliyalı xəstələr üçün bəzi qadağalar var: "Məsələn, hemofiliyalı xəstələrə tərkibində qan duruldan maddələr olan dərman preparatlarının qəbulu və əzələdaxili inyeksiyalar qadağandır. Bundan başqa, ağır fiziki yüklənmə, bəzi idman növləri, məsələn, futbol, basketbol, güləş, boks qadağandır. Ağır formalı hemofiliyalı xəstələrin orta təhsilini ev şəraitində almaqları məqsədəuyğundur. Əgər xəstə travma alıbsa, dərhal travma yerinə buz qoyulmalı, faktor konsentratı vena daxilinə yeridilməlidir. Azyaşlı uşaqlar itiuclu, sərt oyuncaqlardan uzaq tutulmalı, uşaq oynayan məkan yumşaq döşənilməlidir".

Qeyd edək ki, müasir tibbin inkişafı nəticəsində hemofiliyalı şəxslər üçün müalicə və profilaktika imkanları xeyli genişlənib, xüsusilə, laxtalanma faktorlarının əvəzləyici terapiyası sayəsində xəstələrin aktiv və sosial baxımdan dolğun həyat sürməsi mümkün olub. Lakin bu imkanlardan bərabər şəkildə yararlanmaq hələ də bir çox ölkələrdə aktual problem olaraq qalır.

Mütəxəssislər və ictimai səhiyyə qurumları bu gün münasibətilə əhalini daha məlumatlı olmağa, erkən diaqnostikanın əhəmiyyətini dərk etməyə və hemofiliyalı şəxslərə qarşı həssas yanaşma nümayiş etdirməyə çağırır. Çünki düzgün məlumatlandırma və sosial dəstək bu xəstəliklə yaşayan insanların həyatında mühüm rol oynayır.

Beləliklə, Ümumdünya Hemofiliya Günü yalnız tibbi bir tarix deyil, həm də insan həmrəyliyini, anlayışı və diqqəti təşviq edən mühüm bir çağırış kimi qiymətləndirilir. Bu çağırış hər birimizi daha məlumatlı, daha həssas və daha məsuliyyətli olmağa səsləyir.

*Yeganə BAYRAMOVA*

---

*Yeganə BAYRAMOVA*

# "Omikron"u kölgədə qoyan ştamm...



Pandemiyanın artıq geridə qaldığına dair cəmiyyətdə formalaşan ümumi nikbin ovqata baxmayaraq, mütəxəssislər xəbərdarlıq edir ki, koronavirus hələ tamamilə yoxa çıxmayıb. Virusun yeni ştammlarının ortaya çıxması onun davamlı təkamül prosesinin bariz nümunəsi kimi diqqət mərkəzində qalmaqdadır. Bu isə həm səhiyyə sistemləri, həm də ictimai davranış baxımından ehtiyatlı yanaşmanın hələ də aktual olduğunu göstərir.

Mütəxəssislər qeyd edirlər ki, virusların təbiəti etibarilə mutasiyaya uğraması qaçılmazdır. Xüsusilə, geniş yayılmış patogenlərdə bu proses daha intensiv şəkildə baş verir. Buna görə də yeni ştammların meydana çıxması fövqəladə haldan çox, epidemioloji baxımdan gözlənilən bir inkişaf kimi qiymətləndirilməlidir. Lakin, bu, eyni zamanda monitorinq və peyvənd strategiyalarının daim yenilənməsini zəruri edir.

## COVID yenidən güc toplayır?

**Yeni ştamm - "Cırcırama"**

Son günlər yeni COVID-19 variantı BA.3.2-nin dünyada yayılmaqda davam etdiyi və mövcud immuniteti daha asan aşa bildiyi ilə bağlı iddialar ciddi narahatlıq doğurmaqdadır.

Ağciyər xəstəlikləri üzrə tanınmış mütəxəssis, türkiyəli professor Şevket Özkaya bu yeni mutasiya ilə bağlı diqqətçəkən açıqlama verərək bildirib ki, qeyri-rəsmi olaraq "cırcırama" adlandırılan BA.3.2 variantı artıq ABŞ və Avropada yayılmağa başlayıb. Onun sözlərinə görə, bu variantın əsas fərqləndirici xüsusiyyəti çoxsaylı mutasiyalara malik olmasıdır ki, bu da virusun insan orqanizminin müdafiə mexanizmlərini daha asan keçməsinə şərait yaradır.

**Uşaqlar üçün təhlükə...**

Mütəxəssislər bu variantın xüsusiyyətlərini və yayılmasını araşdırmağa davam edirlər. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qeyd edir ki, uşaqlar xüsusilə risk altında ola bilərlər. Baxmayaraq ki, BA.3.2-nin digər ştamplardan daha təhlükəli olduğuna dair hələlik heç bir dəlil yoxdur. Simptomlar tanış olaraq qalır: qızdırma, öskürək, boğaz ağrısı, burun tıxanıqlığı, əzələ ağrıları, halsızlıq, nəfəs darlığı və ishal.

BA.3.2-nin genetik xüsusiyyətləri əvvəlki ştamplardan, o cümlədən "Omikron"dan fərqlənir. Bu da onu daha yoluxucu hala gətirə bilər. Köhnə peyvəndlərin effektivliyi azala bilsə də, mütəxəssislər peyvəndlərin və gigiyenanın gözlənilməsini etibarlı qorunma üsulu olaraq qaldığını qeyd edirlər...

ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzi-nin açıqladığı məlumatlara görə, BA.3.2 variantı artıq ən azı 25 ştatda qeydə alınıb. Bu isə virusun yalnız lokal deyil, daha geniş coğrafiyada yayılmağa başladığını göstərir və mümkün yeni epidemioloji dalğanın ilkin mərhələsi kimi qiymətləndirilə bilər. Eyni zamanda, Avropanın bəzi ölkələrində də bu variantın aşkarlanmasına dair ilkin məlumatların yayılması qlobal səviyyədə yenidən koordinasiyalı tədbirlərin gündəmə gələ biləcəyini göstərir.

Hazırda BA.3.2 variantının klinik gedişata təsiri, ölüm göstəricilərinə mümkün təsiri və mövcud vaksinlərin bu varianta qarşı effektivliyi ilə bağlı yekun elmi nəticələr hələ tam şəkildə açıqlanmayıb.

**"Omikron"a nisbətən daha sürətli yayılır**

Mövu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən infeksionist-həkim Vüqar Cavadzadənin sözlərinə görə, COVID-19 pandemiyasından sonra virusun müxtəlif mutasiyalara uğrayaraq yeni variantlar yaratması alimlərin diqqət mərkəzində qalır. O, qeyd edib ki, bu variantlardan biri kimi qeyd olunan BA.3.2 alt variantı da yoluxuculuq səviyyəsi, simptomların xarakteri və mövcud peyvəndlərin təsir gücü baxımından araşdırılmaqdadır: "BA.3.2 variantı haqqında ilkin məlumatlara görə, onun əvvəlki "Omikron" ştammlarına nisbətən daha sürətli yayılma qabiliyyətinə malik ola biləcəyi ehtimal edilir. Lakin bu xüsusiyyətin konkret populyasiyalar və coğrafi bölgələr üzrə necə dəyişdiyi hələ də genişmiqyaslı tədqiqatların nəticələrindən asılıdır. Alimlər bu sahədə ehtiyatlı yanaşma nümayiş etdirirlər".

**Bu şəxslər risk altındadır...**

İnfeksionistin sözlərinə görə, müşahidələr göstərir ki, BA.3.2 ilə yoluxan şəxslərdə əksər hallarda yüngül və ya orta ağır simptomlar - boğaz ağrısı, qızdırma, yorğunluq, burun axıntısı, bəzən qoxuda və dad hissində zəifləmə kimi əlamətlər müşahidə oluna bilər. Lakin immun sistemi zəif olan insanlarda və yaşlılarda xəstəliyin daha ağır keçmə riski hələ də qalmaqdadır".

**Laqeydlik olduğu təqdirdə...**

V.Cavadzadə qeyd edib ki, virusun hər yeni variantı kimi BA.3.2 də mövcud peyvəndlər effektivliyi tamamilə aradan qaldırmasa da, müəyyən dərəcədə təsirini azalda bilər. Buna görə də gücləndirici doza vaksinlərin tətbiqi infeksiyaya qarşı qorunmada mühüm rol oynamaqda davam edir: "Maska istifadəsi, sosial məsafənin qorunması və gigiyena qaydalarına riayət olunması kimi profilaktik tədbirlər yeni variantların yayılmasının qarşısını almaqda hələ də effektiv üsullar hesab olunur. Bu tədbirlərə laqeyd yanaşılması virusun daha geniş yayılmasına səbəb ola bilər.

Nəticə etibarilə, BA.3.2 variantı ilə bağlı məlumatlar hələ tam formalaşmamış olsa da, mövcud elmi yanaşmalar göstərir ki, diqqətli monitorinq, peyvəndləmə və fərdi qoruyucu tədbirlər pandemiyanın idarə olunmasında əsas vasitələr olaraq qalır. Gələcəkdə virusun davranışı ilə bağlı daha dəqiq nəticələr yalnız davam edən araşdırmalar sayəsində əldə edilə bilər".


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5220
Sifariş: 494
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova